***Ölkəmizin hərtərəfli inkişafı üçün, demokratik, hüquqi dövlətin əsaslarının möhkəmlənməsi üçün məhkəmə-hüquq sisteminin təkmilləşməsi başlıca şərtdir***

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***





# QANUNÇULUQ

HÜQUQ JURNALI

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin orqanı



№ 8 - avqust 2018

*Azərbaycanın tutduğu yol müstəqil Azərbaycan Respublikası, demokratik hüquqi cəmiyyət qurmaq yoludur!*

*Heydər ƏLİYEV,*
*Azərbaycan xalqının ümummilli lideri*



QANUNÇULUQ

HÜQUQ JURNALI

№ 08 AVQUST 2018

TƏSİSÇİ:
**Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi**

BAŞ REDAKTOR:
**Fikrət Məmmədov**

REDAKSİYA HEYƏTİ:
**Fuad Ələsgərov**
**Toğrul Musayev**
**Azər Cəfərov**
**Adil Əliyev**
**Faiq Qurbanov**
**Fuad Cavadov**
**Cavid Hüseynov**
**Elçin Xələfov**

BURAXILIŞA MƏSUL:
**Rasim Həsənov**




Qeydiyyat tarixi: 18.04.2003,
Reyestr №-si: 439. İndeks 1032

“Qanunçuluq” jurnalı redaksiyasının kompüter mərkəzində yığılıb səhifələnmiş,
“Ədliyyə Nəşriyyat Evi” MMC-də çap olunmuşdur.
Ədliyyə Nəşriyyat Evi MMC-nin ünvanı: Xaqani küç., 14,
tel.: 598-26-77, 498-55-69

Bank rekvizitləri:
“Ədliyyə Nəşriyyat Evi” MMC
VÖEN 1700212121 H/h 384974 AZM 380701;

Azərbaycan Beynəlxalq Bankın Səbail filialı, kod 805551,
VÖEN 9900001881, M/h 0137010002031,
SWİFT/Bik İBAZAZ-2X.

# Bu sayımızda:










## RƏSMİ MƏLUMAT

Tacikistan Prezidenti Emoməli Rəhmonun Azərbaycana rəsmi səfəri ....5
Xəzəryanı dövlətlərin dövlət başçılarının V Zirvə toplantısı ....9
Almaniyanın Federal Kansleri Angela Merkelin Azərbaycana səfəri ....13
Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrik ....16

## ƏDLİYYƏ NAZİRLİYİNDƏ

Ədliyyə naziri Hacıqabulda vətəndaşları qəbul edib ....17
Özbəkistan Azərbaycanın ədliyyə sahəsindəki nailiyyətlərinə maraq göstərir ....18
Azərbaycanlı notariuslar Samarada beynəlxalq seminarda iştirak ediblər....19
Ədliyyə Akademiyasının məlumatı ....20
Penitensiar xidmətdə müşavirə keçirilib....21
Bələdiyyələrin hüquqi maarifləndirilməsi üçün ardıcıl tədbirlər görülür ....21

## BÖLGƏLƏRƏ SƏFƏR

Ədliyyə işçilərinin yay istirahəti ....22

## YENİ QANUNLAR, FƏRMANLAR...

“Məşğulluq haqqında” Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1196-VQ nömrəli Qanunu ....25
“Məşğulluq haqqında” Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1196-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 24 avqust 233 nömrəli Fərmanı ....39
“Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında” Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1197-VQ nömrəli Qanunu ....42
“Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında” Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1197-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 24 avqust 232 nömrəli Fərmanı ....47
“Notariat haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1223-VQD nömrəli Qanunu ....48
“Notariat haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1223-VQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 avqust 230 nömrəli Fərmanı ....50

## YENİ QANUNLAR, FƏRMANLAR...


"İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1224-VQ nömrəli Qanunu ........................................................................51

"Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1225-VQ nömrəli Qanunu ....................................................52



# Tacikistan Prezidenti Emoməli Rəhmonun Azərbaycana rəsmi səfəri

**Avqustun 9-11-də Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon Azərbaycan Respublikasında rəsmi səfərdə olub.**

Rəsmi qarşılanma mərasimi zamanı Azərbaycan Prezidenti İlham Əliyev Tacikistan Prezidenti Emoməli Rəhmonu qarşılayıb, sonra dövlət başçılarının təkbətək görüşü keçirilib.

Görüşdə dövlətimizin başçısı səfərin ölkələrimiz arasında qardaşlıq münasibətlərinin daha da möhkəmlənməsinə xidmət edəcəyinə əminliyi ifadə edib, əməkdaşlığın gücləndirilməsi üçün yaxşı zəmin olduğunu, səfər zamanı hüquqi baza yaradacaq xeyli sənədin imzalanacağını bildirib.

Dost Azərbaycanın uğurlarına, sosial-iqtisadi inkişafına, beynəlxalq arenada uğurlarına səmimi qəlbdən sevindiyini deyən Tacikistan Prezidenti ölkəsinin Azərbaycanla çoxşaxəli əməkdaşlığa böyük əhəmiyyət verdiyini vurğulayıb. Bildirib ki, Tacikistan-Azərbaycan qarşılıqlı əlaqələrinin bütün formatlarda dinamik inkişafı sevindiricidir.

Sonra prezidentlərin görüşü nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam



*Azərbaycan və Tacikistan prezidentlərinin təkbətək görüşü*



*Azərbaycan və Tacikistan prezidentlərinin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü*

etdirilib, Azərbaycan-Tacikistan sənədləri imzalanıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon dövlət başçılarının Birgə Bəyanatını imzalayıblar.

İmzalanma mərasimində, həmçinin "Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) ilə Tacikistan Respublikasının İnvestisiyalar və Dövlət Əmlakının İdarəedilməsi üzrə Dövlət Komitəsi arasında əməkdaşlıq haqqında Memorandum", "Azərbaycan Sənaye Korporasiyası" ilə "Tacik Alüminium Kompaniyası" (TALKO) Dövlət Unitar Müəssisəsi arasında Anlaşma Memorandumu", "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti ilə Tacikistan Respublikası Hökuməti yanında Televiziya və Radio Komitəsi arasında əməkdaşlıq haqqında Memorandum", "SOCAR və TALKO şirkətləri arasında neft koksunun təchizatı haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti ilə Tacikistan Respublikasının Milli Təhlükəsizlik Dövlət Komitəsi arasında Tacikistan Respublikasının Milli Təhlükəsizlik Dövlət Komitəsinin sərhəd qoşunlarının hərbi qulluqçularının Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin Akademiyasında təlimi haqqında Saziş", "Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında Saziş", "Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Tacikistan Respublikasının Təhsil və Elm Nazirliyi arasında illik təhsil kvotalarının qarşılıqlı ayrılmasına dair Protokol", "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Tacikistan Respublikasının İqtisadi İnkişaf və Ticarət Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş", "Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında sənaye və yeni texnologiyalar sahəsində əməkdaşlıq haqqında Saziş", "Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Tacikistan Respublikasının Baş Prokurorluğu arasında əməkdaşlıq haqqında Saziş", "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Tacikistan Respublikasının Xarici İşlər Nazirliyi arasında 2019-2020-ci illər üzrə Əməkdaşlıq Proqramı" imzalanıb.

Dövlət başçıları mətbuata bəyanatlarla çıxış ediblər.

Azərbaycan Prezidenti İlham Əliyev Tacikistan Prezidentinin Azərbaycana səfərini ölkələrimizin ikitərəfli münasibətlərində mühüm hadisə adlandırıb, Prezident Emoməli Rəhmonun rəhbərliyi ilə Tacikistanın uğurlu inkişafını vurğulayıb, imzalanmış sənədlərin münasibətlərimiz üçün mühüm hüquqi baza yaratdığını qeyd edərək əldə olunan razılaşmaların uğurlu icrasının əmtəə dövriyyəsinin xeyli artmasına və bir çox istiqamətlər



*Azərbaycan-Tacikistan sənədlərinin imzalanması*

üzrə işimizin fəallaşmasına gətirib çıxaracağını hesab edib.

Tacikistan və Azərbaycan prezidentlərinin Birgə Bəyanatının ölkələrimiz arasında qarşılıqlı fəaliyyətin bütün sahələrini əhatə edən olduqca fundamental vacib siyasi sənəd olduğunu qeyd edən dövlətimizin başçısı bu sənəddə iqtisadi əməkdaşlıq, nəqliyyat, humanitar əməkdaşlıq, təhlükəsizliyin möhkəmləndirilməsi sahələrində mühüm məsələlərin əsas prioritetlərinin əks olunduğunu vurğulayıb. Bildirib ki, sənəddə ölkələrimizi narahat edən vacib məsələlər də əks olunub. Azərbaycan Tacikistanın BMT-də irəli sürdüyü və gələcək onilliyin - 2018-2028-ci illərin "Su - dayanıqlı inkişaf üçün" tezisi ilə bağlı onilliyin olmasına dair təşəbbüsünü fəal dəstəkləyir. Həmçinin, Bəyanatın mətnində yazılıb ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığı çərçivəsində BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə, ATƏT-in qərarlarına uyğun şəkildə həll olunmalıdır.

Tacikistanın belə ədalətli mövqeyinə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazilərinin Ermənistanın işğalı altında olduğunu, Ermənistanın BMT-nin Təhlükəsizlik Şurası və digər beynəlxalq təşkilatların qərar və qətnamələrini yerinə yetirmədiyini diqqətə çatdırıb.

Azərbaycan Prezidenti Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsinin, eləcə də böyük Ələt ticarət limanının tikintisinin yüklərin ixracı üçün, o cümlədən Tacikistandan, həmçinin Mərkəzi Asiyanın digər ölkələrindən Azərbaycan ərazisindən keçməklə ixrac üçün tamamilə yeni imkanlar açdığını qeyd edib.

Azərbaycanın Tacikistanın xarici siyasət strategiyasında mühüm yerlərdən birini tutduğunu, əməkdaşlığımızın gələcəkdə də inkişafında və möhkəmlənməsində maraqlı olduğunu bildirən Tacikistan Prezidenti Emoməli Rəhmon ölkələrimiz arasında əmtəə dövriyyəsinin artırılması məsələlərinin və iqtisadiyyatın müxtəlif sektorlarında əməkdaşlığımızın istiqamətlərinin genişləndirilməsinin diqqət mərkəzində olduğunu qeyd edib, imzalanan dövlətlərarası sənədlərin reallaşdırılmasını ticari-iqtisadi münasibətlərimizin gələcək inkişafının amili kimi dəyərləndirib.

Əldə olunan razılaşmaların sənaye, energetika, nəqliyyat, aqrar sektor və turizm kimi iqtisadiyyatın baza sektorlarında uzunmüddətli əməkdaşlıq formalarının inkişafına təkan verəcəyini hesab edən Tacikistan Prezidenti həm də beynəlxalq və regional birliklər çərçivəsində də qarşılıqlı fəaliyyətimizin



*Azərbaycan və Tacikistan prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər*

perspektivlərinin müzakirə olunduğunu, ölkələrimizin beynəlxalq terrorizm, ekstremizm, radikal dini ideologiya, narkotiklərin qanunsuz dövriyyəsi, transmilli mütəşəkkil cinayətkarlıq və digər çağırışlar və təhlükəsizliyin təhdidləri ilə mübarizədə gələcəkdə də əməkdaşlığı inkişaf etdirməyə tərəfdar olduğunu vurğulayıb.

Cənubi Qafqazda cərəyan edən proseslərə toxunan Prezident Emoməli Rəhmon mövcud ziddiyyətlərin və münaqişələrin hamılıqla tanınan beynəlxalq normalar və meyarlar çərçivəsində sülh yolu ilə həlli prinsipinə qəti sadiqliyini ifadə edib, siyasi-diplomatik dialoqun Dağlıq Qarabağ kimi çətin problemin həllində ən konstruktiv yol olduğunu söyləyib.

Tacikistanın dövlət başçısı səfər zamanı mədəni-humanitar əlaqələrin inkişafı, təhsil, elm, mədəniyyət, incəsənət, turizm və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi məsələlərinə diqqət yetirildiyini qeyd edib, bugünkü danışıqların nəticələrinin ölkələrimizi və xalqlarımızı daha da yaxınlaşdıracağına əminliyini ifadə edib.

Səfər zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun şərəfinə rəsmi ziyafət verilib.

Avqustun 10-da Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub. Ali qonaq, həmçinin Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının məzarlarını ziyarət edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Həmin gün Milli Məclisin sədri Oqtay Əsədov və Tacikistan Prezidenti Emoməli Rəhmon birgə işçi nahar ediblər. Söhbət zamanı Azərbaycan ilə Tacikistan arasında dostluq və qardaşlıq münasibətlərinin yüksək səviyyədə olduğu bildirilib, əlaqələrimizin, o cümlədən parlamentlərarası əməkdaşlığın inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

Avqustun 11-də isə ADA Universitetinə gələn Tacikistan Prezidenti təhsil ocağı ilə tanış olub, universitetdə görüş keçirilib, Mərkəzi Asiyada sülhün və sabitliyin möhkəmlənməsinə, həmçinin Azərbaycan və Tacikistan respublikaları arasında qarşılıqlı əməkdaşlığa şəxsi töhfəsinə görə ADA Universitetinin elmi şurasının qərarı ilə Emoməli Rəhmona ADA-nın fəxri doktor diplomu təqdim edilib.

Bu etimada görə təşəkkürünü bildirən Tacikistan Prezidenti məruzə ilə çıxış edib.

# Xəzəryanı dövlətlərin dövlət başçılarının V Zirvə toplantısı

## Azərbaycan Prezidenti İlham Əliyev tədbirdə iştirak edib




**Avqustun 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xəzəryanı dövlətlərin dövlət başçılarının V Zirvə toplantısında iştirak etmək üçün Qazaxıstanın Aktau şəhərində səfərdə olub.**

Qazaxıstan Prezidenti Nursultan Nazarbayev Azərbaycan Prezidenti İlham Əliyevi və digər dövlət başçılarını qarşılayıb.

V Zirvə toplantısını açıq elan edən Qazaxıstan Prezidenti Nursultan Nazarbayev "Xəzər günü" ilə eyni vaxtda keçirilən Sammitin əhəmiyyətindən danışıb.

Zirvə toplantısında çıxış edən dövlətimizin başçısı İlham Əliyev Azərbaycanın Xəzəryanı ölkələrlə dostluq və mehriban qonşuluq münasibətlərinin uğurla inkişaf etdiyini, ölkələrimiz arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq əlaqələrinin Xəzər dənizində sabitliyin və təhlükəsizliyin mühüm amili olduğunu vurğulayıb.

Bildirib ki, Azərbaycan Xəzəryanı ölkələr arasında əməkdaşlığın hüquqi bazasının yaradılmasında fəal iştirak edib. 2010-cu ildə Xəzəryanı ölkələrin dövlət başçılarının Bakıda keçirilmiş III Zirvə



*Xəzəryanı dövlətlərin dövlət başçılarının V Zirvə toplantısı*




*Azərbaycan Prezidenti İlham Əliyevin Xəzəryanı dövlətlərin dövlət başçılarının V Zirvə toplantısında çıxışı*

Toplantısı ölkələrimiz arasında sıx əməkdaşlığın möhkəmləndirilməsi işinə mühüm töhfəsini vermişdir. Həmin Zirvə Toplantısında regionda təhlükəsizliyin və sabitliyin qorunub saxlanması baxımından mühüm əhəmiyyət daşıyan "Xəzər dənizində təhlükəsizlik sahəsində əməkdaşlıq haqqında Saziş" imzalanmışdır.

Orada ilk dəfə konseptual olaraq suverenlik və balıqçılıq zonaları yüksək səviyyədə razılaşdırılmışdır. Sammitdə, həmçinin Xəzəryanı dövlətlərin Xəzər dənizində əməkdaşlığının əsas prinsipləri razılaşdırılmışdır. Bu prinsiplər dövlətlərin suverenliyi, müstəqilliyi və ərazi bütövlüyünə hörməti, Xəzərin sülh, mehriban qonşuluq və dostluq zonasına çevrilməsini ehtiva edir. Qeyd edilməlidir ki, həmin prinsiplər bu gün imzalanacaq "Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya"da da öz əksini tapmışdır. Konvensiya fundamental normativ sənəd kimi Xəzər dənizinin ümumi hüquqi rejimini müəyyən edir.

Dövlətimizin başçısı Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsinin onun dibinin və səthinin beynəlxalq hüququn prinsip və normalarına uyğun olaraq tərəflər arasında sektorlara bölünməsi prosesinin başa çatdırılmasına kömək edəcəyini qeyd edib.

"Xəzər dənizinin ekoloji vəziyyətinin yaxşılaşdırılması, onun bioresurslarının mühafizəsi və artırılması ölkəmiz üçün prioritet məsələlərdən biridir", - deyən Azərbaycan Prezidenti son illər Azərbaycanda Xəzərin ekoloji vəziyyətinin yaxşılaşdırılması istiqamətində mühüm tədbirlərin həyata keçirilməsindən bəhs edib, müstəqillik dövründə Azərbaycanın həyata keçirdiyi neft-qaz əməliyyatlarının ən yüksək beynəlxalq ekoloji standartlara cavab verdiyini, nəqliyyat sektoruna çoxmilyardlıq investisiyanın qoyulmasının Azərbaycanı Avrasiyanın mühüm nəqliyyat və logistik mərkəzlərindən birinə çevirdiyini vurğulayıb, ölkəmizin Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinin yaradılmasında və inkişafında da mühüm rolundan danışıb.

Xəzərdə 260-dan çox gəmisi olan donanmaya malik Azərbaycanda 2013-cü ildə ən müasir texnoloji standartlara cavab verən gəmiqayırma zavodunun istifadəyə verildiyini, bu ilin may ayında Ələt Beynəlxalq Dəniz Ticarət Limanının inşasının başa




*Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın imzalanması*

çatdığını qeyd edib.

Bildirib ki, Azərbaycan Xəzəryanı ölkələrin sərhəd və gömrük xidmətləri arasında əməkdaşlığın möhkəmlənməsi işində də fəal rol oynayır. Qaçaqmalçılıq, narkotrafik və digər qanunsuz fəaliyyətlərlə mübarizədə fəal və səmərəli iş aparılır.

Azərbaycanın regional sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi işinə öz dəyərli töhfəsini verdiyini söyləyən Prezident İlham Əliyev Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq siyasətinin regional təhlükəsizlik üçün böyük təhdid doğurduğunu, Ermənistanın işğalı nəticəsində Azərbaycanın beynəlxalq səviyyədə tanınmış torpaqlarının təxminən 20 faizinin işğal olunduğunu, 1 milyondan çox soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyünü, bir çox aparıcı beynəlxalq təşkilatların qəbul etdikləri Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmasını tələb edən qərar və qətnamələrə Ermənistanın əməl etmədiyini, beynəlxalq hüququn norma və prinsiplərini kobudcasına pozduğunu diqqətə çatdırıb.

Çıxışının sonunda dövlətimizin başçısı Sammitdə qəbul edilən qərarların Xəzəryanı ölkələr arasında əməkdaşlığın bundan sonra da inkişaf etdirilməsi, Xəzər regionunda təhlükəsizliyin və sabitliyin möhkəmləndirilməsi işinə öz töhfəsini verəcəyinə əminliyini söyləyib.

Sammitdə çıxış edən İran Prezidenti Həsən Ruhani, Rusiya Prezidenti Vladimir Putin və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov Zirvə görüşünün əhəmiyyətinə toxunaraq onun Xəzəryanı ölkələr arasında əməkdaşlığın daha da inkişafına güclü təkan verəcəyini, siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin dərinləşməsinə xidmət edəcəyini bildiriblər.

Qazaxıstanın Aktau şəhərində Xəzəryanı dövlətlərin dövlət başçılarının V Zirvə toplantısında sənədlərin imzalanması mərasimi olub.

Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanı Azərbaycan Prezidenti İlham Əliyev, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev, Rusiya Prezidenti Vladimir Putin, İran Prezidenti Həsən Ruhani və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov imzalayıblar.

Bundan əlavə, Xəzəryanı dövlətlərin müvafiq qurumlarının rəhbərləri tərəfindən bu Konvensiyadan irəli gələn digər mühüm sənədlər -



*Azərbaycan və Qazaxıstan prezidentlərinin görüşü*



*Azərbaycan və İran prezidentlərinin görüşü*

Xəzər dənizində mütəşəkkil cinayətkarlığa qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında Protokol, Xəzəryanı dövlətlərin hökumətləri arasında ticari-iqtisadi əməkdaşlıq və nəqliyyat sahəsində əməkdaşlıq haqqında sazişlər, Xəzər dənizində insidentlərin qarşısının alınması haqqında Saziş və sərhəd xidməti idarələrinin əməkdaşlığı və qarşılıqlı əlaqələri haqqında Protokol imzalanıb.

Sonra prezidentlər mətbuata bəyanatlarla çıxış ediblər.

Səfər zamanı Prezident İlham Əliyevin və Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevin görüşü olub.

Görüşdə Qazaxıstan Prezidenti Nursultan Nazarbayev ölkəsində nəqliyyat sahəsində görülən işlərdən danışaraq Kurık və Lyanyunqan limanlarının açıldığını bildirib, Asiyadan Avropaya yüklərin tranziti ilə bağlı Azərbaycan və Qazaxıstan arasında əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğunu vurğulayıb.

Qardaş Qazaxıstan torpağında yenidən olmağından məmnunluğunu bildirən Prezident İlham Əliyev Aktau şəhərinin müasirləşməsinin Qazaxıstanın və Qazaxıstan regionlarının dinamik inkişafının göstəricisi olduğunu qeyd edib, Qazaxıstanda Kurık və Azərbaycanda Ələt limanlarının açılışının ölkələrimizə daha sıx inteqrasiya etməyə imkan yaradacağını, bir-birimizin tranzit imkanlarından istifadənin iqtisadi və siyasi nöqteyi-nəzərdən çox səmərəli olacağını vurğulayıb.

Dövlətimizin başçısı Konvensiyanın imzalanmasını tarixi xarakterli sənəd adlandırıb və Xəzərin bundan sonra da regionda sabitləşdirici rol oynaması üçün Konvensiyanın bütün müddəalarının yerinə yetirilməsinə səy göstəriləcəyini söyləyib. Həmçinin ikitərəfli münasibətlərimizin çox dinamik inkişaf etdiyini bildirib.

Səfər çərçivəsində Prezident İlham Əliyev Aktauda İran İslam Respublikasının Prezidenti Həsən Ruhani ilə də görüşüb.

Görüşdə Azərbaycan ilə İran arasında əlaqələrin siyasi, iqtisadi və digər sahələrdə uğurla inkişaf etdiyi bildirilib. Ölkələrimizin həyata keçirdiyi birgə iqtisadi layihələrin yaxşı nəticələr verdiyi vurğulanıb. Enerji, nəqliyyat və infrastruktur sahələrində, həmçinin Şimal-Cənub nəqliyyat dəhlizi üzrə əməkdaşlığın uğurla həyata keçirildiyi qeyd olunub.

Prezidentlər Xəzəryanı dövlətlərin dövlət başçılarının Qazaxıstanda keçirilən V Zirvə toplantısının və Xəzərin hüquqi statusu haqqında imzalanan Konvensiyanın əhəmiyyətini vurğulayaraq onun gələcəkdə Xəzəryanı ölkələr arasında əməkdaşlığı daha da möhkəmləndirəcəyinə əminliklərini ifadə ediblər.

Görüşdə ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparılıb.

Aktauda Xəzəryanı dövlətlərin dövlət başçılarının V Zirvə toplantısından sonra Azərbaycan Prezidenti İlham Əliyev, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev, Rusiya Prezidenti Vladimir Putin, İran Prezidenti Həsən Ruhani və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov şəhərin dəniz sahilində gəzintiyə çıxıblar.

Gəzintidən sonra prezidentlər körpə nərə balıqlarının Xəzər dənizinə buraxılması mərasimində iştirak ediblər.

Həmin gün Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevin adından Xəzəryanı dövlətlərin dövlət başçılarının V Zirvə toplantısının iştirakçılarının şərəfinə rəsmi qəbul təşkil olunub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev rəsmi qəbulda iştirak edib.

Bununla da Prezident İlham Əliyevin Qazaxıstana səfəri başa çatıb.



# Almaniyanın Federal Kansleri Angela Merkelin Azərbaycana səfəri

**Avqustun 25-də Almaniya Federativ Respublikasının Federal Kansleri xanım Angela Merkel Azərbaycan Respublikasında səfərdə olub.**



Rəsmi qarşılanma mərasimi zamanı Azərbaycan Prezidenti İlham Əliyev Almaniyanın Federal Kansleri Angela Merkeli qarşılayıb, rəsmi foto çəkdiriblər.

Sonra Prezident İlham Əliyevin və Almaniyanın Federal Kansleri xanım Angela Merkelin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü keçirilib.

Görüşdə dövlətimizin başçısı İlham Əliyev Almaniya Kansleri xanım Angela Merkelin ölkəmizə səfərinin çox uğurlu olacağına və Almaniya-Azərbaycan əlaqələrinin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliyini ifadə edib, Federal Kanslerlə dəfələrlə görüşünü xatırladaraq siyasi dialoqun fəal şəkildə aparıldığını qeyd edib, hazırkı səfərin əlaqələrimizə yeni təkan verəcəyini bildirib.

Azərbaycana ilk dəfə səfər etdiyini söyləyən



*Azərbaycan Prezidenti cənab İlham Əliyevin və Almaniyanın Federal Kansleri xanım Angela Merkelin görüşü*



*Mətbuat konfransı*

Almaniya Kansleri Angela Merkel ölkələrimiz arasında çoxtərəfli münasibətləri qeyd edib, Azərbaycanın regionda Almaniyanın ən böyük ticarət tərəfdaşı olduğunu vurğulayıb, iqtisadi, mədəniyyət sahələrində əlaqələrin genişləndirilməsi üçün imkanların olduğunu söyləyib.

Azərbaycan Prezidenti İlham Əliyevin adından Almaniyanın Federal Kansleri Angela Merkelin şərəfinə rəsmi nahar verilib, sonra birgə mətbuat konfransı olub.

Prezident İlham Əliyev və Federal Kansler xanım Angela Merkel mətbuat konfransında çıxış ediblər.

Xanım Kanslerin Azərbaycana səfərini tarixi səfər adlandıran dövlətimizin başçısı Almaniya-Azərbaycan əlaqələrinin sürətlə inkişaf edəcəyinə əminliyini ifadə edib, səfər zamanı bir çox məsələlərin açıq, konstruktiv şəkildə müzakirə edildiyini diqqətə çatdırıb, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə toxunaraq Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazilərinin uzun illərdir ki, Ermənistanın işğalı altında olduğunu, bu işğal nəticəsində bir milyondan çox azərbaycanlının öz doğma torpağında qaçqın-köçkün vəziyyətinə düşdüyünü, münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi erməni silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılmasına dair qətnamələrin Ermənistan tərəfindən icra olunmadığını vurğulayıb. Bildirib ki, Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir və münaqişə bu prinsiplər əsasında öz həllini tapmalıdır.

Prezident İlham Əliyev, həmçinin Azərbaycan və Almaniya arasında ticarət dövriyyəsinin artmasından, enerji təhlükəsizliyi məsələlərindən, Azərbaycanın bu sahədə rolundan bəhs edib, demokratiya, insan haqlarının qorunması sahəsində əməkdaşlığımızın davam etdirilməsi ilə bağlı niyyətini ifadə edib, Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanmış tərəfdaşlıq prioritetləri sənədi üzərində çox konstruktiv şəkildə iş aparıldığını söyləyib.



*Azərbaycan Prezidentinin və Almaniya Federal Kanslerinin iş adamları ilə görüşü*

Dövlətimizin başçısı qeyd edib ki, iki ölkə arasında münasibətlər səmimidir, dostluq münasibətləridir və səfərin də bu münasibətlərin möhkəmlənməsində çox böyük rolu olacaqdır.



Almaniyanın Federal Kansleri Angela Merkel bu səfərin ölkələrimiz arasında münasibətləri müzakirə etmək və əməkdaşlığımızı davam etdirmək üçün yaxşı imkan olduğunu bildirib, yaradılmasının 100 illiyi qeyd olunan Azərbaycan Xalq Cümhuriyyətinin ənənələri olan bir dövlət olduğunu söyləyib. Vurğulayıb ki, Azərbaycan bu regionda Almaniyanın ən böyük, ən vacib ticarət tərəfdaşıdır. Ölkəmizdə iqtisadiyyatın şaxələndirilməsinə Almaniyanın öz töhfəsini verməyə hazır olduğunu söyləyən Federal Kansler Azərbaycanın Avropa İttifaqının enerji şaxələndirilməsində güclü bir amil olduğunu, Cənub Qaz Dəhlizinin açılmasının Avropanın enerji təminatında böyük rol oynayacağını qeyd edib. Bakı-Tbilisi-Qars dəmir yolunun açılmasını yüksək qiymətləndirən xanım Kansler bunun Avropa ilə ticarət əlaqələrini genişləndirəcəyini, mübadilə aparılmasını yaxşılaşdıracağını bildirib.

Dağlıq Qarabağ münaqişəsinin həllinin Almaniyanın marağında olduğunu deyən xanım Angela Merkel regiondakı bütün münaqişələrin sülh yolu ilə həll edilməsinin vacibliyini vurğulayıb.

Sonra Prezident İlham Əliyev və Federal Kansler Angela Merkel jurnalistlərin suallarını cavablandırıblar.

Səfər zamanı Heydər Əliyev Mərkəzində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Almaniya Federativ Respublikasının Federal Kansleri xanım Angela Merkelin iş adamları ilə görüşü olub.

Dövlətimizin başçısı görüşdə çıxış edərək Almaniyadan olan şirkətlərin Azərbaycanda uzun illərdir fəaliyyət göstərdiyini, müxtəlif layihələr icra etdiklərini qeyd edib, müasirləşmə dövrünü yaşayan Azərbaycan iqtisadiyyatının çox sürətlə inkişaf etdiyini, ölkəmizin böyük neft-qaz resurslarına malik olduğunu və onları ixrac etdiyini bildirərək qeyd edib ki, əsas məqsədimiz qeyri-neft sektorunun inkişafıdır və bu sahədə Almaniyadan olan şirkətlər bizə kömək göstərə bilərlər.

Hazırda kənd təsərrüfatının inkişafı, turizm, informasiya-kommunikasiya sektoru, infrastruktur layihələri, o cümlədən dəmir yollarının modernləşdirilməsi, inşaat sektoru və digər sahələrin prioritetlər sırasında olduğunu söyləyən Prezident İlham Əliyev bu gün yeni kontraktların imzalanacağına, yeni əməkdaşlıq formatının yaradılacağına əminliyini ifadə edib.

Almaniya Kansleri Angela Merkel çıxışında dövlətimizin başçısı ilə ikitərəfli, eləcə də Azərbaycanın Avropa İttifaqı ilə münasibətləri, həmçinin ölkəmizin geostrateji ərazidə yerləşməsi, İran və Rusiya ilə sərhədlərə malik olması, Türkiyə ilə sıx münasibətləri barədə fikir mübadiləsi apardığını bildirib, Azərbaycanın Avropanın enerji təminatının şaxələndirilməsində Avropa İttifaqı üçün mühüm bir ölkə olduğunu vurğulayıb.

Azərbaycanda alman xarici ticarət palatasının olduğunu və burada 150-dən çox alman müəssisəsinin fəaliyyət göstərdiyini deyən Federal Kansler qeyd edib ki, ölkənin iqtisadiyyatının inkişafına töhfə vermək üçün digər müəssisələr də ürəkdən dəvət olunur. Bizim bunda böyük marağımız var.

Səfər çərçivəsində Almaniya Federativ Respublikasının Federal Kansleri Angela Merkel Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş şəhidlərin məzarlarını ziyarət edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

# Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrik



**Hörmətli həmvətənlər!**

Sizi dünya müsəlmanlarının mənəvi birlik, həmrəylik və qardaşlıq rəmzi olan müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, xalqımıza və Azərbaycanın hüdudlarından kənarda yaşayan bütün soydaşlarımıza ən səmimi arzu və diləklərimi yetirirəm.

Qurban mərasimi Uca Yaradana məhəbbət və itaət, yüksək mənəvi-əxlaqi dəyərlərə hörmət, hər bir bəşər övladına mərhəmət və dözümlülük təlqin edən İslam dininin insanlar üçün hidayət yolu seçilməsi ilə əlamətdardır. Bu mübarək bayram bütün dünya müsəlmanlarının mənəvi-ruhi birliyini, əməli-saleh insanların Tanrı sevgisini və haqq-ədalət naminə hər cür fədakarlığa hazır olmalarını təcəssüm etdirir.

Mütərəqqi islami dəyərlərə bağlılığı ilə seçilən Azərbaycan xalqı əsrlər boyu, hətta ən mürəkkəb dövrlərdə Qurban bayramını özünün əziz günlərindən biri kimi qoruyub saxlamışdır. Hazırda minlərlə həmvətənimizin də aralarında olduğu milyonlarla müsəlman müqəddəs Həcc ziyarətində möhtəşəm həmrəylik nümayiş etdirərək, Uca Yaradana şükranlarını bildirir, ölkəmizdə və dünyada sülhün, əmin-amanlığın bərqərar olması üçün dualar edirlər.

Bayram günləri müsəlmanlarımız Allah və din yolunda öz müqəddəs borcunu yerinə yetirir, qurbanlar kəsilir, imkansızlara və ehtiyacı olanlara yardımlar edilir, şəhidlərimizin nurlu xatirəsi ehtiramla yad olunur. Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, hər belə bayram cəmiyyətimizdə xeyirxahlığın, birlik və bərabərliyin, Vətənə və milli dövlətçiliyə sədaqətin təntənəsinə çevrilir.

İnanıram ki, bu mübarək bayram müstəqil Azərbaycan Respublikasının tərəqqisi naminə xalqımızın qəhrəmanlıq və fədakarlıq qüdrətini artıracaq, ölkəmizdə vətəndaş sülhünü və milli-mənəvi həmrəyliyi daha da gücləndirəcəkdir.

**Əziz bacı və qardaşlarım!**

Kəsdiyiniz qurbanların Allah tərəfindən qəbul olunması arzusu ilə bir daha hər birinizə möhkəm cansağlığı, ailələrinizə firavanlıq, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram.

Qurban bayramınız mübarək olsun!

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 20 avqust 2018-ci il*

# Ədliyyə naziri Hacıqabulda vətəndaşları qəbul edib



**Ölkə Prezidenti İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması barədə tapşırıqlarına uyğun olaraq Ədliyyə Nazirliyi tərəfindən vətəndaşların bölgələrdə qəbuluna xüsusi diqqət yetirilir.**

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq avqustun 31-də ədliyyə naziri Fikrət Məmmədov Hacıqabul rayonu Heydər Əliyev Mərkəzində Hacıqabul, Şirvan və Kürdəmir rayonlarından olan vətəndaşların qəbulunu keçirib.

Qəbuldan əvvəl nazir və Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı Əhməd Muxtarov ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə gül dəstələri qoyub, əziz xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Qəbul zamanı hər bir vətəndaş diqqətlə dinlənilib, müraciətlərdə qaldırılan məsələlərin bir qismi elə yerindəcə öz həllini tapıb, digər müraciətlər üzrə nazirliyin qəbulda iştirak edən aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Vətəndaşlar bölgə sakinlərinin qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Səfər zamanı ədliyyə naziri, həmçinin yerli ədliyyə və məhkəmə orqanlarının fəaliyyəti və iş şəraiti ilə tanış olub, ədliyyə işçiləri və hakimlərlə müşavirə keçirib.

Müşavirədə ədliyyə fəaliyyətinin təkmilləşdirilməsi, ədalət mühakiməsinin səmərəliliyinin artırılması, cəza siyasətinin humanistləşdirilməsi ilə bağlı dövlət başçısının tapşırıqlarından irəli gələn vəzifələr diqqətə çatdırılıb, ədliyyə və məhkəmə sisteminin müasirləşməsi, qabaqcıl texnologiyaların tətbiqi, məhkəmə qərarlarının icrası işinin yaxşılaşdırılması, probasiya xidmətinin fəaliyyətinin təşkili ilə bağlı tapşırıq və tövsiyələr verilib, şəffaflığın və vətəndaş məmnunluğunun təmin olunması, korrupsiyaya şərait yaradan halların yolverilməzliyi qeyd olunub.

# Özbəkistan Azərbaycanın ədliyyə sahəsindəki nailiyyətlərinə maraq göstərir

**Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən mütərəqqi hüquqi islahatlar çərçivəsində ədliyyə sistemi təkmilləşir və müasirləşir, bu sahədə nailiyyətlərə və tətbiq olunan yeniliklərə beynəlxalq aləmdə maraq artır. Belə ki, Özbəkistanın Ədliyyə Nazirliyi Azərbaycanın ədliyyə sahəsindəki müsbət təcrübəsindən bəhrələnmək barədə niyyətini bildirib. Bu məqsədlə nazirliyin nümayəndə heyəti cari il avqustun 6-16-da ölkəmizdə səfərdə olub.**

Səfər zamanı qonaqlar əvvəlcə Fəxri Xiyabanda ulu öndər Heydər Əliyevin əziz xatirəsini yad edərək məzarı önünə gül dəstələri qoyublar. Həmçinin, Şəhidlər Xiyabanında ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş həmvətənlərimizin məzarlarını ziyarət ediblər.

Ədliyyə Nazirliyində Özbəkistan nümayəndə heyəti ilə nazir müavini Toğrul Musayevin görüşü keçirilib.

Ölkələrimiz arasında dostluq və səmərəli əməkdaşlıq münasibətlərini qeyd edən nazir müavini dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə ədliyyə sisteminin inkişafı üzrə aparılan islahatlar, nazirliyin ayrı-ayrı istiqamətləri, o cümlədən qanunyaradıcı fəaliyyəti, qulluğa qəbul, əhaliyə göstərilən elektron xidmətlər, eləcə də Azərbaycan brendi olan və ədliyyənin də müvafiq xidmətlər göstərdiyi "ASAN xidmət" mərkəzlərinin vətəndaş məmnunluğunu təmin edən fəaliyyəti barədə məlumat verib, məhkəmə sisteminin müasirləşdirilməsi üzrə aparılan islahatlardan, hakimlərin



*Özbəkistan Ədliyyə Nazirliyinin nümayəndə heyəti ilə görüş*



Avropada ən şəffaf seçim prosedurunun tətbiqindən bəhs edib, qarşılıqlı fəaliyyətin genişləndirilməsi üçün yaxşı perspektivlərin olduğunu vurğulayıb.

Azərbaycana səfərindən məmnunluqlarını ifadə edən qonaqlar respublikamızın hərtərəfli inkişafını təqdir edib, dövlətlərimiz arasında ənənəvi dostluq münasibətlərinin olduğunu vurğulayaraq hüquqi sahədə əməkdaşlığın dərinləşdirilməsinin əhəmiyyətini qeyd ediblər. Nümayəndə heyəti səfər zamanı







*Şəki regional ədliyyə idarəsi, Şəki Məhkəmə Kompleksi və "ASAN xidmət" mərkəzi ilə tanışlıq*

ədliyyə və məhkəmə sistemindəki nailiyyətlər və tətbiq olunan yeniliklərlə tanış olduqlarını söyləyərək Azərbaycanın bu sahədə qabaqcıl təcrübəsinin öyrənilməsinin ölkəsi üçün faydalı olduğunu bildirib.

Sonra qonaqlar Ədliyyə tarixi muzeyi ilə tanış olublar.

Səfər zamanı nümayəndə heyəti nazirlikdə qanunvericilik, qeydiyyat və notariat fəaliyyəti, elektron xidmətlər, reyestrlər və digər elektron informasiya resursları ilə yaxından tanış olub, təqdimatlar keçirilib. Müxtəlif növ sistemlərin funksiya və imkanlarını, habelə elektron xidmətləri əyani izləyən qonaqlar əldə olunan nailiyyətləri yüksək qiymətləndiriblər.

Eyni zamanda, Özbəkistan nümayəndə heyəti respublikamızın şimal-qərb bölgəsinə səfər edərək yerli və regional ədliyyə qurumlarının fəaliyyəti, müasir penitensiar və məhkəmə infrastrukturu, elektron məhkəmə sisteminin tətbiqi, eləcə də "ASAN xidmət"in innovativ fəaliyyəti, habelə Bakının müasir rəmzlərindən sayılan möhtəşəm Heydər Əliyev Mərkəzi və mədəni-tarixi abidələri ilə tanış olublar.

# Azərbaycanlı notariuslar Samarada beynəlxalq seminarda iştirak ediblər

**Cari ilin 27 iyul - 02 avqust tarixlərində Rusiya Federasiyası Notariat Palatası tərəfindən Samara vilayətinin Notariat Palatası ilə birgə "Qanunvericilik və notariat təcrübəsi" mövzusunda notariusların XX Beynəlxalq Seminarı keçirilib.**



Rusiya, Türkiyə, Argentina, Fransa, Bolqarıstan, Belarus, Qazaxıstan və Serbiya dövlətlərindən 200-dən çox nümayəndənin, həmçinin Beynəlxalq Notariat İttifaqının fəxri prezidenti Daniel Senqorun iştirak etdiyi tədbirdə ölkəmizi Ədliyyə Nazirliyi Qeydiyyat və notariat baş idarəsinin məsul əməkdaşı və notariuslardan ibarət nümayəndə heyəti təmsil edib.



*Beynəlxalq Notariat İttifaqının fəxri prezidenti Daniel Senqor ilə xatirə şəkli*

Beynəlxalq seminarda Rusiya Federasiyası Notariat Palatasının vitse-prezidenti və ölkə notariusları, eləcə də iştirakçı dövlətlərin nümayəndələri notariusların statusu, ər-arvadın birgə mülkiyyəti, vərəsəlik hüququnun beynəlxalq hüquqi aspektləri, hüquqi şəxslərin təsis edilməsi və fəaliyyətində notariusların iştirakının aktual problemləri, notariat sahəsində həyata keçirilən islahatlar, qəbul edilən normativ hüquqi aktlar, yeniliklər barədə məlumat veriblər.

Həmçinin, notariat təcrübəsi, müəssisələrin fəaliyyətini tənzimləyən qanunvericilik, etibarnaməli idarəçilik müqaviləsi, notariusun depozit hesabı, torpaq sahəsi vərəsəlik hüququnun obyekti kimi məsələlər müzakirə olunub.

Tədbirdə Azərbaycan nümayəndə heyətinin üzvləri tərəfindən çıxışlar edilərək ölkəmizdə dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə ədliyyə sisteminin inkişafı çərçivəsində notariat sahəsində aparılan islahatlardan və yeniliklərdən, o cümlədən

xüsusi notariat institutunun və elektron notariatın inkişafından danışılıb, notariusların elektron informasiya sistemi vasitəsilə digər orqanlarla qarşılıqlı fəaliyyəti, o cümlədən daşınmaz əmlakın dövlət reyestri ilə elektron məlumat mübadiləsinin təşkili, daşınmaz əmlakın təqdim edilməsi müqavilələrinin təsdiqi zamanı sadələşdirilmiş verginin tutulması və qanunvericilikdə edilmiş dəyişikliklər, həmçinin notariusun bankda açdığı depozit hesabı vasitəsilə həyata keçirdiyi əməliyyatlar barədə ətraflı məlumat verilib.

Azərbaycanda müasir notariat institutunun formalaşdırılması və inkişafı üzrə görülən tədbirlər və əldə olunan nailiyyətlər seminar iştirakçıları tərəfindən böyük maraqla qarşılanıb və Rusiya, Türkiyə, Belarus notariusları ölkəmizin bu sahədə müsbət təcrübəsi ilə tanış olmaq üçün Azərbaycana səfər etmək barədə istəklərini bildiriblər.

# Ədliyyə Akademiyasının məlumatı



**Ədliyyə Akademiyası tərəfindən ədliyyə işçilərinin, ilk dəfə ədliyyə və prokurorluq orqanlarına qulluğa qəbul olunanların, məhkəmə aparatı işçilərinin, vəkillərin və vəkilliyə namizədlərin, xüsusi notariusların və digər kateqoriyalardan olan dinləyicilərin hazırlanması və ixtisasının artırılması üzrə tədbirlər davam etdirilir. Eyni zamanda, peşə fəaliyyətinə buraxılışla əlaqədar Akademiyada ədliyyə orqanlarına qulluğa qəbul edilən, prokuror və müstəntiq vəzifələrinə, habelə vəkilliyə namizədlər icbari təlimlərə cəlb olunurlar.**

Avqustun 30-da Ədliyyə Akademiyasında prokurorluq orqanlarına işə qəbulla bağlı müsabiqədən uğur qazanmış namizədlərlə icbari təlimin açılışı olub.

Tədbirdə Akademiyanın rektoru vəzifəsini icra edən Elçin Xələfov, Baş Prokurorluğun Kadrlar idarəsinin rəisi Nazim Rəcəbov və Elm-Tədris Mərkəzinin rəisi Nazir Bayramov çıxış edərək müsabiqədən uğurla keçən namizədlərin peşə fəaliyyətinə buraxılmaları üçün keçirilən icbari təlimin əhəmiyyətindən danışıb, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb, zəruri tövsiyələr veriblər.

Bildirilib ki, bir ay davam edəcək icbari təlim kursunun proqramı Baş Prokurorluq və Ədliyyə Akademiyası tərəfindən müasir tədris metodu əsasında hazırlanıb, əsasən praktiki əhəmiyyət kəsb edən mövzulardan ibarətdir. Həmçinin kursa cəlb olunan təlimçilər təcrübəli prokurorluq, ədliyyə işçiləri və peşəkar hüquqşünaslardır.

Sonra təlimin proqramı üzrə mövzularda mühazirələr dinlənilib.

# Penitensiar xidmətdə müşavirə keçirilib






**Avqustun 15-də Ədliyyə Nazirliyinin Penitensiar xidmətində maliyyə intizamının gücləndirilməsi ilə bağlı müşavirə keçirilib.**

Xidmətin müvafiq struktur və tabe qurumlarının mühasibat şöbə və bölmə əməkdaşlarının iştirakı ilə keçirilən tədbirdə dövlət başçısının tapşırıqlarına uyğun olaraq maliyyə intizamının gücləndirilməsi, izafi xərclərin qarşısının alınması, büdcə vəsaitinin qənaətlə istifadə edilməsi, xidməti nizam-intizamın möhkəmləndirilməsi ilə bağlı nazirliyin rəhbərliyinin tələbləri müşavirə iştirakçılarının nəzərinə çatdırılıb, konkret göstərişlər verilib.

Eyni zamanda, uçot-hesabat sənədlərinin yeni tələblərə uyğun olaraq elektron formaya keçirilməsi ilə bağlı prosesin diqqət mərkəzində saxlanılmasının zəruriliyi vurğulanıb.

# Bələdiyyələrin hüquqi maarifləndirilməsi üçün ardıcıl tədbirlər görülür





**Ədliyyə Nazirliyinin Lənkəran regional ədliyyə idarəsinin təşkilatçılığı ilə avqust ayının 15-də Astara rayonunda, İmişli regional ədliyyə idarəsi tərəfindən isə avqustun 29-da Saatlı şəhərində bələdiyyə üzvlərinin və qulluqçularının maarifləndirilməsi məqsədi ilə seminar-müşavirələr keçirilib.**

Tədbirlərdə Ədliyyə Nazirliyi tərəfindən bələdiyyələrin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər, nazirliyin Bələdiyyələrlə İş Mərkəzi və regional ədliyyə idarələri tərəfindən bələdiyyə üzvləri və qulluqçularının hüquqi maarifləndirilməsi, onlara metodiki kömək göstərilməsi və fəaliyyətlərinə inzibati nəzarət sahəsində görülən işlər barədə məlumat verilib.

Sonra "Yerli özünüidarəetmədə etik davranış", "Bələdiyyə qulluğuna qəbul prosesində şəffaflığın təmin edilməsi", "Bələdiyyə aktlarının qəbulu və icrası", "Yerli vergi borcunun ödənilmə qaydası", "Bələdiyyə torpaqlarının idarə olunmasında qanunçuluğun təmin edilməsi", "Bələdiyyə torpaqlarının qiymətləndirilməsi" və "Strateji yol xəritəsinin icrasında bələdiyyələrin iştirakı", "Bələdiyyələrin fəaliyyətində şəffaflığın artırılması və korrupsiya hüquqpozmalarının qarşısının alınması" mövzularında mühazirələr dinlənilib.

Yekunda iştirakçıları maraqlandıran suallar ətrafında faydalı fikir mübadiləsi aparılıb, bələdiyyələrin qarşısında duran vəzifələr müzakirə olunub.

# Ədliyyə işçilərinin yay istirahəti

**Zəngin tarixi-mədəni irsə, əlverişli təbii-coğrafi şəraitə malik olan ölkəmizdə möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasına uyğun olaraq genişmiqyaslı abadlıq-quruculuq işlərinin aparılması, sosial infrastruktur layihələrinin uğurlu icrası, yeni müasir turizm obyektlərinin, istirahət guşələrinin tikilib istifadəyə verilməsi əhalinin rifahına, rahatlığına, asudə vaxtlarının səmərəli təşkilinə xidmət edir.**



*Ədliyyə işçiləri Qax rayonu "El-Resort" istirahət mərkəzində*

Paytaxtda və regionlarda insanlara müxtəlif çeşidli müasir xidmət mərkəzlərinin yaradılması həm ölkə vətəndaşları, həm də turistlər üçün respublikamızın dilbər guşələrinə ekskursiyalar təşkil etməyə, özünəməxsus adət-ənənələri, tarixi-mədəni məkanları ilə tanış olmağa vəsilə olur.

Bu məqsədlə müxtəlif infoturların, istirahət ekskursiyalarının təşkil olunması ölkəmizi tanımaq və tanıtmaq, gənc nəslin vətənsevərliyini və dünyagörüşünü artırmaq baxımından olduqca əhəmiyyətlidir.

Ədliyyə Nazirliyinin rəhbərliyi tərəfindən əməkdaşların bilik və bacarıqlarının, mənəvi-estetik dünyagörüşlərinin artırılmasına, eləcə də sağlamlığının və fiziki hazırlığının möhkəmləndirilməsinə, asudə vaxtlarının səmərəli təşkilinə daim yüksək diqqət və qayğı ilə yanaşılır, nazirliyin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin xətti ilə hər il yay mövsümündə ədliyyə işçiləri üçün respublikamızın müxtəlif bölgələrinə maraqlı ekskursiyalar təşkil




*Zaqatala rayonu Heydər Əliyev Mərkəzi ilə tanışlıq*

olunur. Bu səyahətlər zamanı əməkdaşlar ölkəmizin tarixi yerləri, müasir infrastrukturu, gözoxşayan təbiəti ilə tanış olur, istirahətlərini mənalı və xoş keçirirlər.

Cari ilin yay aylarında nazirliyin rəhbərliyi tərəfindən ədliyyə işçilərinin ölkəmizin əlverişli iqlimi və turizm imkanları ilə seçilən məkanlarında ailəvi və kollektiv dincəlmələri üçün hərtərəfli şərait yaradılmış, o cümlədən iyul və avqust aylarında ədliyyə işçilərinin Qax və Lerik rayonlarına istirahət-gəzinti turu təşkil edilmişdir.



*Zaqatala Tarix-Diyarşünaslıq Muzeyi ilə tanışlıq*

Əvvəlcə şimal-qərb bölgəsinə səfər edən ədliyyə işçilərinə Qax rayonunda ucqar dağlar qoynunda yerləşən, qədim kənd və müasir şəhər elementlərini özündə birləşdirən "El-Resort" istirahət mərkəzində mənalı və xoş vaxt keçirmək, dincəlmək üçün hər cür şərait yaradılmışdır.

Azərbaycanın cənnət guşələrindən biri hesab olunan Qax rayonunun mülayim və saf dağ iqlimi, meşələrin, dağların, çayların təkrarsız görünüşü, tarixi və mədəni abidələrlə zənginliyi, eləcə də ləziz mətbəxi və yüksək qonaqpərvərliyi ədliyyə işçilərində xoş ovqat və unudulmaz təəssürat yaratmışdır.

Nazirliyin əməkdaşları burada asudə vaxtlarını səmərəli və mənalı keçirmiş, müxtəlif idman növləri, o cümlədən voleybol, tennis, boilinq və digər oyunlarla məşğul olmuş, musiqili-əyləncəli proqramlar təşkil edilmişdir.

Bölgəyə səfər çərçivəsində ədliyyə işçiləri Zaqatala və Şəki rayonlarında da olmuş, Zaqatalada xalqımızın ümummilli lideri Heydər Əliyevin adını daşıyan Heydər parkını gəzmiş, Ulu Öndərin abidəsini ziyarət etmiş, milli memarlıq ənənələrini özündə əks etdirən müasir üslubda tikilmiş Heydər Əliyev Mərkəzi ilə yaxından tanış olmuşlar. Əməkdaşlar Mərkəzdə ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən fotolardan ibarət zəngin ekspozisiyalarla tanışlıqdan xoş təəssüratla ayrılmışlar.

Ədliyyə işçiləri, həmçinin Zaqatala əhalisinin sevimli istirahət yerlərindən biri olan Dədə Qorqud Meydanını gəzmişlər. El arasında qala düzü pilləkənləri adlanan, 1946-cı ildə inşa edilmiş sayı 128 olan pilləkənlər məhz bu ərazidə yerləşir.

Bununla yanaşı, 1967-ci ildə yaradılmış Zaqatala Tarix-Diyarşünaslıq Muzeyində olan ədliyyə işçiləri maraqlı tarixi ekspozisiyalara baxmışlar.

Şəkidə olarkən nazirliyin kollektivi Azərbaycanın orta əsr memarlığının ən görkəmli və nadir abidələrindən olan Xan Sarayında olmuş, sənətkarlıq, ipəkçilik və ticarətlə məşğul olan karvanların və səyyahların qalması, müxtəlif ticarət əməliyyatlarının aparılması məqsədilə XVIII-XIX əsrlərdə tikilmiş Yuxarı Karvansaray



*Ədliyyə işçiləri Lerik rayonu “Relaks” istirahət mərkəzində*




*Lənkəran şəhəri Heydər Əliyev Mərkəzi ilə tanışlıq*

Kompleksini gəzmişlər.

Daha sonra ədliyyə işçiləri Azərbaycanın qədim tarixə malik olan Lerik rayonuna səfər etmişlər.

Talış dağlarının zirvəsində yerləşən Lerik rayonunun füsunkar təbiəti, əzəmətli dağları, saysız-hesabsız qalaları, zümrüd meşələri və nadir ağacları, zəngin flora və faunası diqqəti cəlb edir, yol boyunca bir-birindən gözəl mənzərələri seyr etdikcə hər bir kəsdə xoş əhval-ruhiyyə yaradır.

Dağların əhatəsində yerləşən "Relax" istirahət mərkəzində qonaq olan ədliyyə işçilərinə burada asudə vaxtlarını daha səmərəli və maraqlı keçirmələri üçün hər cür imkan yaradılmış, bir-birindən maraqlı oyunlar, əyləncəli intellektual yarışlar təşkil edilmiş, cənub bölgəsinin ləziz təamlarına qonaq edilmişlər. Təbiətin şıltaqlığına baxmayaraq əməkdaşlar ölkəmizin bu gözəl diyarında istirahətdən, gəzintidən zövq almış, hər kəsdə xoş ovqat, yüksək əhval-ruhiyyə yaratmışdır.

Cənub bölgəsinə səfər zamanı nazirliyin kollektivi, həmçinin Lənkəran şəhər Heydər Əliyev Mərkəzində ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən fotolardan ibarət zəngin ekspozisiyalarla tanış olub. Eyni zamanda ədliyyə işçiləri Lənkəran şəhəri Tarix-Diyarşünaslıq Muzeyində olaraq müxtəlif tarixi ekspozisiyalarla tanış olmuşlar.

Hər bir guşəsi əsl istirahət məkanı olan qədim tarixə, yüksək mədəniyyətə, tarixi-mədəni abidələrə, müasir infrastruktura malik ölkəmizin bölgələrinə səyahət ədliyyə işçilərinin yaddaşında xoş və unudulmaz anlar kimi həkk olunur, nazirliyin rəhbərliyi tərəfindən hər bir əməkdaşın rahat və səmərəli istirahəti üçün belə gözəl imkanın yaradılması böyük məmnuniyyət hissi ilə qarşılanır.

Fürsətdən istifadə edərək, əməkdaşlarımızın hər il isti yay günlərində doğma Azərbaycanımızın füsunkar təbiətə malik olan müxtəlif rayonlarında istirahət etmələri üçün hərtərəfli şərait yaradılmasına görə ədliyyə işçiləri adından nazirliyin rəhbərliyinə dərin minnətdarlığımızı bildiririk.

**"Qanunçuluq"**



*Lənkəran şəhəri Tarix-Diyarşünaslıq Muzeyi ilə tanışlıq*

## Məşğulluq haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 35-ci maddəsinə və 94-cü maddəsinin I hissəsinin 1-ci bəndinə uyğun olaraq məşğulluğa kömək sahəsində dövlət siyasətinin hüquqi, iqtisadi və təşkilati əsaslarını, eləcə də işaxtaran və işsiz şəxslərin sosial müdafiəsi sahəsində dövlət təminatlarını müəyyən edir.

### 1-ci fəsil
### ÜMUMİ MÜDDƏALAR

**Maddə 1. Əsas anlayışlar**

1.1. Bu Qanunda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.1.1. aktiv məşğulluq tədbirləri - işaxtaran və işsiz şəxslərin məşğulluq imkanlarının genişləndirilməsi, peşəyönümünün, peşə hazırlığının təmin edilməsi, bilik və bacarıqlarının artırılması, əmək bazarının tələblərinə uyğun işçi qüvvəsinin formalaşdırılması məqsədi ilə onlar üçün xüsusi proqramların tətbiqinə yönəldilən tədbirlər;

1.1.2. əmək bazarı - işçi qüvvəsinə olan tələb və təklifin məcmusu;

1.1.3. fərdi məşğulluq proqramı - işsiz şəxsin işə düzəlməsinə və əmək bazarına qaytarılmasına kömək məqsədi ilə hazırlanan aktiv məşğulluq tədbirlərinin konkret həcmini, növünü və icra müddətini müəyyən edən sənəd;

1.1.4. fərdi məşğulluq vərəqi - işaxtaran və işsiz şəxsə dair fərdi məlumatlardan, o cümlədən təhsili və peşəsi (ixtisası) barədə məlumatlardan, məşğulluq tarixçəsi, habelə təklif olunan münasib iş və aktiv məşğulluq tədbirləri, onların icra vəziyyətinə dair məlumatlardan ibarət sənəd;

1.1.5. Haqqı ödənilən ictimai işlər - işsiz şəxslərin müvəqqəti məşğulluğunu təmin etmək məqsədi ilə bu Qanuna uyğun olaraq təşkil edilən ilkin peşə hazırlığının olmasını tələb etməyən ictimai faydalı xarakter daşıyan iş yerləri;

1.1.6. işsiz şəxs - işi və qazancı olmayan, işə başlamağa hazır olub, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) işsiz kimi qeydiyyata alınan, əmək qabiliyyətli yaşda olan əmək qabiliyyətli şəxs;

1.1.7. işaxtaran - müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) münasib iş üçün müraciət edən və işaxtaran kimi qeydiyyata alınan şəxs;

1.1.8. kvota - sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin işlə təmin edilməsi məqsədi ilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən işəgötürənlər üçün müəyyən edilmiş iş yerlərinin (işçilərin) minimum sayı;

1.1.9. qeyri-formal məşğulluq - Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğun olaraq əmək müqaviləsi (kontrakt) və ya Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq mülki hüquqi müqavilə bağlanılmadan müəyyən fəaliyyətin yerinə yetirilməsi, Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq sahibkarlıq fəaliyyətinin və mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaqdan istifadənin rəsmiləşdirilmədən həyata keçirilməsi, eləcə də "Ailə kəndli təsərrüfatı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq yerli özünüidarəetmə orqanlarında uçota durmadan ailə kəndli təsərrüfatının təşkili nəticəsində qazanc (gəlir) əldə edilməsi;

1.1.10. məşğulluq - Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin (bundan sonra - şəxslər) Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan və qazanc (gəlir) gətirən hər hansı fəaliyyəti;

1.1.11. məşğul şəxslərin reyestri - bu Qanunun 4.1-ci maddəsində nəzərdə tutulan məşğul şəxslər barəsində fərdi məlumatlardan, onların təhsili, iş yeri, vəzifəsi (peşəsi) və ya yerinə yetirdiyi iş (xidmət) barədə məlumatların məcmusu;

1.1.12. qeyri-formal məşğulluğun leqallaşdırılması sahəsində nəzarəti həyata keçirən orqanlar - qeyri-formal məşğulluğun aşkar edilməsi və qarşısının alınması sahəsində nəzarət tədbirlərini həyata keçirən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanlar (qurumlar);

1.1.13. nəzarət tədbirləri - "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun 2.1-ci maddəsində nəzərdə tutulan tədbirlər;

1.1.14. müvəqqəti məşğulluq - şəxsin Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğun olaraq mövsümi işlərə, bu Qanunla müəyyən edilmiş qaydada haqqı ödənilən ictimai işlərə cəlb edilməsi və ya əmək birjaları vasitəsilə müəyyən müddət ərzində ictimai faydalı fəaliyyəti;

1.1.15. özünüməşğulluq - şəxsin müstəqil surətdə və yaxud dövlətin dəstəyi ilə özünü işlə təmin etməsi;

1.1.16. peşə standartları - konkret peşə sahəsi üzrə işçinin yerinə yetirməli olduğu işin məzmununa və əmək şəraitinə qoyulan, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən minimum tələblərin məcmusu;

1.1.17. peşə hazırlığı - işaxtaran və işsiz şəxslərin əmək bazarının tələbatına uyğun olaraq təhsil müəssisələrində ixtisasa (peşəyə) və (və ya) yeni ixtisasa (peşəyə) yiyələnmək üçün yenidən hazırlıq, ixtisasartırma istiqamətlərində təhsil alması;

1.1.18. sığorta ödənişi - "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş sığorta hadisəsi baş verdikdə, sığortaolunana sığortaçı tərəfindən ödənilən aylıq pul vəsaiti;

1.1.19. sərbəstləşdirilən işçilər - dövlət orqanının və ya hüquqi şəxsin ləğv edilməsi, yenidən təşkil olunması, işçilərin sayının və ya ştatların ixtisar edilməsi ilə əlaqədar əmək münasibətlərinə xitam verilmiş şəxslər;

1.1.20. sosial müəssisə - sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin məşğulluğunun təmin olunması üçün yaradılan ixtisaslaşdırılmış hüquqi şəxs;

1.1.21. sosial iş yeri - işaxtaranlar və işsiz şəxslərin məşğulluğunu təmin etmək və işəgötürənləri həvəsləndirmək məqsədi ilə işəgötürənin ən azı 3 (üç) ay əvvəl vakansiya bankına təqdim olunmuş boş iş yeri üzrə işçinin əməkhaqqının bir hissəsinin bu Qanunla müəyyən edilmiş qaydada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən maliyyələşdirilən iş yeri;

1.1.22. sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslər - əlillər və sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar, 20 yaşadək gənclər, yetkinlik yaşına çatmamış uşaqları tərbiyə edən tək və çoxuşaqlı valideynlər, sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqları tərbiyə edən valideynlər, pensiya yaşına iki ildən az qalmış şəxslər, cəzaçəkmə yerlərindən azad edilmiş şəxslər, məcburi köçkünlər;

1.1.23. ştat vahidlərinə dair cədvəl - müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) mərkəzləşdirilmiş elektron informasiya sistemi (bundan sonra - elektron informasiya sistemi) tərəfindən işəgötürənlərin bu Qanunun 7.2-ci maddəsinə uyğun olaraq daxil etdikləri məlumatlar əsasında yaradılan cədvəl;

1.1.24. vakansiya - işəgötürənin boş olan və işçi tələb edilən iş yeri;

1.1.25. vakansiya bankı - işəgötürənin boş olan və işçi tələb edilən iş yerlərinin, habelə yeni yaradılan iş yerlərinin elektron informasiya ehtiyatı;

1.1.26. yeni iş yeri - işəgötürən tərəfindən mövcud ştat vahidlərinə əlavə olaraq yaradılmış iş yeri.

1.2. Bu Qanunda istifadə olunan digər anlayışlar Azərbaycan Respublikasının Əmək Məcəlləsi, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi, "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu və başqa normativ hüquqi aktlar ilə müəyyən edilmiş mənaları verir.

**Maddə 2. Məşğulluq haqqında Azərbaycan Respublikasının qanunvericiliyi**

2.1. Məşğulluq haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanunundan, bu Qanundan və ona uyğun olaraq qəbul edilmiş digər normativ hüquqi aktlardan, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

2.2. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə məşğulluq sahəsində bu Qanundan fərqli qaydalar müəyyən edildikdə, həmin beynəlxalq müqavilələr tətbiq olunur.

**Maddə 3. Bu Qanunun əhatə dairəsi**

Bu Qanun Azərbaycan Respublikasının vətəndaşlarına, Azərbaycan Respublikasında yaşayan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə şamil edilir.

**Maddə 4. Məşğul şəxslər**

4.1. Məşğul şəxslərə aşağıdakılar aiddir:

4.1.1. muzdla işləyənlər - Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğun olaraq işəgötürənlə əmək müqaviləsi (kontrakt) bağlayaraq, müvafiq iş yerlərində əmək fəaliyyətini əməkhaqqı müqabilində yerinə yetirən şəxslər;

4.1.2. mülki-hüquqi xarakterli müqavilələrlə işləyənlər - Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq qarşı tərəflə müqavilə bağlayıb əmək münasibətləri yaratmadan müəyyən haqq müqabilində işləri (xidmətləri) yerinə yetirən şəxslər;

4.1.3. sahibkarlar, mülkiyyətində kənd təsərrüfatına yararlı torpaq payı olanlar, ailə kəndli təsərrüfatının üzvləri;

4.1.4. haqqı ödənilən vəzifəyə seçilənlər, təyin və ya təsdiq edilənlər;

4.1.5. Azərbaycan Respublikasının Silahlı Qüvvələrində xidmət edənlər;

4.1.6. ödənişli fəaliyyətlə məşğul olan ali və orta ixtisas təhsil müəssisələrində əyani təhsil alanlar;

4.1.7. Azərbaycan Respublikasının ərazisində qanuni əsaslarla haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər;

4.1.8. Azərbaycan Respublikasının hüdudlarından kənarda qanuni əsaslarla əmək fəaliyyəti ilə məşğul olan Azərbaycan Respublikasının vətəndaşları.

4.2. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) məşğul şəxslərin vahid informasiya bazasını yaratmaq məqsədi ilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) elektron informasiya sistemində dövlət orqanlarının və digər qurumların apardığı elektron informasiya ehtiyatlarından (məlumat bazaları, məlumat-axtarış sistemləri, reyestrlər və digər informasiya resursları) istifadə etməklə məşğul şəxslərin reyestrini elektron formada aparır.

4.3. Məşğul şəxslərin reyestrində bu Qanunun 4.1-ci maddəsində göstərilən məşğul şəxslər barəsində məlumatların əldə edilməsi və reyestrə daxil edilməsi, reyestrin aparılması və ondan istifadə qaydasını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) təsdiq edir.

4.4. Bu Qanunun 4.1-ci maddəsində göstərilən məşğul şəxslərə dair məlumatlar məşğul şəxslərin reyestrinə "Fərdi məlumatlar", "İnformasiya əldə etmək haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası qanunlarına və Azərbaycan Respublikasının bu sahədə yaranan münasibətləri tənzimləyən digər normativ hüquqi aktlarına uyğun olaraq, aşağıdakı tələblər nəzərə alınmaqla daxil edilir:

4.4.1. bu Qanunun 4.1.1-ci maddəsində göstərilən məşğul şəxslər barədə - müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) apardığı elektron informasiya sisteminin məlumatları əsasında;

4.4.2. Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsinə əsasən siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilmiş dövlət orqanlarında müvafiq vəzifələrə (peşələrə) qəbul edilən (götürülən) məşğul şəxslər barədə - həmin orqanlar tərəfindən onları işə qəbul etdikləri (götürdükləri) gündən ən geci 1 (bir) ay ərzində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) kağız daşıyıcılarda təqdim etdikləri məlumatlar əsasında;

4.4.3. bu Qanunun 4.1.2-ci maddəsində göstərilən məşğul şəxslər və 4.1.3-cü maddəsində göstərilən sahibkarlar barədə - müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) apardığı elektron informasiya sisteminin məlumatları əsasında;

4.4.4. bu Qanunun 4.1.3-cü maddəsində göstərilən mülkiyyətində kənd təsərrüfatına yararlı torpaq payı olan məşğul şəxslər barədə - müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanlar (qurumlar) tərəfindən bu Qanunun 4.5-ci maddəsinə uyğun olaraq əldə edilən məlumatları əldə etdikləri tarixdən ən geci 1 (bir) ay müddətində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) kağız daşıyıcılarda təqdim etdikləri məlumatlar əsasında;

4.4.5. bu Qanunun 4.1.3-cü maddəsində göstərilən ailə kəndli təsərrüfatının üzvləri barədə - onların uçotunu aparan yerli özünüidarəetmə orqanları tərəfindən uçota aldıqları gündən ən geci 1 (bir) ay ərzində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) kağız daşıyıcılarda təqdim etdikləri məlumatlar əsasında;

4.4.6. bu Qanunun 4.1.4-cü maddəsində göstərilən məşğul şəxslər barədə - onların seçilməsi, təyin və ya təsdiq edilməsinə dair hüquqi aktları qəbul etmiş orqanların həmin hüquqi aktların qəbul edildiyi tarixdən ən geci 1 (bir) ay müddətində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) bu barədə kağız daşıyıcılarda təqdim etdikləri məlumatlar əsasında;

4.4.7. bu Qanunun 4.1.5-ci maddəsində göstərilən məşğul şəxslər barədə - onları işə (xidmətə) qəbul edən orqanlar tərəfindən onların işə (xidmətə) qəbul edildikləri gündən ən geci 1 (bir) ay ərzində

müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) kağız daşıyıcılarda təqdim etdikləri məlumatlar əsasında, "Dövlət sirri haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında" və "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında" Azərbaycan Respublikası qanunlarının tələbləri nəzərə alınmaqla;

4.4.8. bu Qanunun 4.1.6-cı maddəsində göstərilən məşğul şəxslər barədə - müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən yaradılan qurumun apardığı elektron informasiya sisteminin məlumatları əsasında;

4.4.9. bu Qanunun 4.1.7-ci maddəsində göstərilən məşğul şəxslər barədə - müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) apardığı elektron informasiya sisteminin məlumatları əsasında;

4.4.10. bu Qanunun 4.1.8-ci maddəsinə göstərilən məşğul şəxslər barədə - müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin 58-ci maddəsinə uyğun olaraq əldə edilən məlumatları əldə etdikləri tarixdən ən geci 1 (bir) ay müddətində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) kağız daşıyıcılarda təqdim etdikləri məlumatlar əsasında.

4.5. Bu Qanunun 4.1.3-cü maddəsində göstərilən, bu Qanun qüvvəyə minənədək mülkiyyətində kənd təsərrüfatına yararlı torpaq payı olanlar məşğul şəxslərin reyestrinin fəaliyyətə başladığı tarixdən, bu Qanun qüvvəyə mindikdən sonra kənd təsərrüfatına yararlı torpaq payı əldə edən məşğul şəxslər isə daşınmaz əmlakın dövlət reyestrindən bu barədə müvafiq sənədləri əldə etdikdən sonra 1 (bir) ay müddətində mülkiyyətlərində olan kənd təsərrüfatına yararlı torpaq paylarına dair bütün məlumatları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanlara (qurumlara) təqdim etməlidirlər.

4.6. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) məşğul şəxslər barəsində bu Qanunun 4.4.2-ci, 4.4.4-cü, 4.4.5-ci, 4.4.6-cı, 4.4.7-ci və 4.4.10-cu maddələrinə uyğun olaraq təqdim edilmiş məlumatları həmin məlumatlar təqdim olunduğu gündən ən geci 1 (bir) ay müddətində məşğul şəxslərin reyestrinə daxil etməlidir.

4.7. Bu Qanunun 4.4.2-ci, 4.4.4-cü, 4.4.6-cı, 4.4.7-ci və 4.4.10-cu maddələrində nəzərdə tutulmuş dövlət orqanları və 4.4.5-ci maddəsində nəzərdə tutulmuş yerli özünüidarəetmə orqanları məşğul şəxslərə dair məlumatların müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma), habelə bu Qanunun 4.5-ci maddəsində nəzərdə tutulmuş mülkiyyətində kənd təsərrüfatına yararlı torpaq payı olan şəxslər həmin torpaq paylarına dair məlumatların müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanlara (qurumlara) həmin maddələrdə göstərilən müddətdə təqdim olunmasını təmin etməlidirlər.

4.8. Bu Qanunun 4.4.1-ci, 4.4.3-cü, 4.4.8-ci və 4.4.9-cu maddələrində nəzərdə tutulmuş məlumatlar məşğul şəxslərin reyestrinə inteqrasiya olunmuş dövlət orqanlarının və digər qurumların apardığı elektron informasiya sistemləri vasitəsilə ən geci 1 (bir) ay müddətində daxil edilir.

4.9. Bu Qanunun 4.6 - 4.8-ci maddələrinin tələblərini pozan dövlət və yerli özünüidarəetmə orqanları, habelə mülkiyyətində kənd təsərrüfatına yararlı torpaq payı olan şəxslər qanunla müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

**Maddə 5. İşaxtaran və işsiz şəxslərin qeydiyyatına dair ümumi müddəalar**

5.1. İşaxtaran və işsiz şəxslərin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) qeydiyyata alınması qaydasını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) təsdiq edir.

5.2. Şəxslər elektron informasiya sistemində elektron ərizəni doldurduqdan sonra işaxtaran kimi qeydiyyata alınırlar.

5.3. İşaxtaran kimi qeydiyyata alınmaq üçün elektron ərizənin forması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilir.

5.4. Şəxs işaxtaran kimi qeydiyyata alındığı zaman onun elektron informasiya sisteminə daxil etdiyi məlumatlar əsasında elektron qaydada fərdi məşğulluq vərəqi tərtib edilir.

5.5. Şəxs işaxtaran kimi qeydiyyata alındığı gündən 5 (beş) iş günü ərzində ona münasib iş təklif olunmadığı və ya işəgötürən (işəgötürənlər) tərəfindən vakansiyaya qəbulundan imtina edildiyi halda, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) həmin şəxsin işsiz kimi qeydiyyata alınması haqqında qərar qəbul edir və bu barədə şəxsin fərdi məşğulluq vərəqində müvafiq qeyd aparır.

5.6. İşaxtaran və işsiz şəxslər fərdi məşğulluq vərəqindən çıxarışı elektron informasiya sistemindən real vaxt rejimində əldə etmək hüququna malikdirlər.

5.7. İşaxtaran və işsiz kimi qeydiyyata alınmış şəxslərin ixtisası, peşəsi, sağlamlıq imkanlarının məhdudluğu və yaşayış ünvanı üzrə məlumatlar dəyişdiyi halda onlar elektron informasiya sistemində bu barədə məlumatları yeniləməlidirlər.

5.8. Aşağıdakı hallarda şəxs işaxtaran kimi qeydiyyatdan müvəqqəti çıxarılır:

5.8.1. hərbi və ya alternativ xidmətə, hərbi toplanışlara çağırıldıqda, həmin müddətdə;

5.8.2. barəsində azadlıqdan məhrumetmə və ya tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olduqda, həmin müddətdə;

5.8.3. işaxtaran kimi qeydiyyata alındığı tarixdən 2 (iki) il ərzində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təklif etdiyi münasib işləri qəbul etmədikdə, 1 (bir) il müddətində.

5.9. Aşağıdakı hallarda şəxsin işaxtaran kimi qeydiyyatı ləğv edilir:

5.9.1. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) göndərişi əsasında münasib işlə təmin olunduqda;

5.9.2. vəfat etdikdə və ya məhkəmənin qanuni qüvvəyə minmiş qərarı əsasında xəbərsiz itkin düşmüş və ya ölmüş elan edildikdə;

5.9.3. təqdim olunmuş sənədlərdə və məlumatlarda təhrif olunmuş və ya düzgün olmayan məlumatlar aşkar edildikdə;

5.9.4. işaxtaran kimi qeydiyyatdan çıxarılma barədə ərizə təqdim edildikdə.

5.10. Aşağıdakı hallarda şəxs işsiz kimi qeydiyyatdan müvəqqəti çıxarılır:

5.10.1. hərbi və ya alternativ xidmətə, hərbi toplanışlara çağırıldıqda, həmin müddətdə;

5.10.2. barəsində azadlıqdan məhrumetmə və ya tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olduqda, həmin müddətdə;

5.10.3. ona təklif olunan münasib işlərdən imtina etdikdə, 1 (bir) il müddətində;

5.10.4. fərdi məşğulluq proqramının tərtib olunmasından və (və ya) icrasından imtina etdikdə və yaxud fərdi məşğulluq proqramının icrasına dair hesabatı "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 17.7-ci maddəsi ilə müəyyən edilmiş müddətdə təqdim etmədikdə.

5.11. Aşağıdakı hallarda şəxsin işsiz kimi qeydiyyatı ləğv edilir:

5.11.1. bu Qanunun 4-cü maddəsinə əsasən məşğul şəxs hesab edildikdə;

5.11.2. "Əmək pensiyaları haqqında" və ya "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının qanunları ilə müvafiq olaraq yaşa görə əmək pensiyası və ya yaşa görə müavinət təyin edilməsi üçün əsaslar yarandıqda;

5.11.3. vəfat etdikdə və ya məhkəmənin qanuni qüvvəyə minmiş qərarı əsasında xəbərsiz itkin düşmüş və ya ölmüş elan edildikdə;

5.11.4. təqdim olunmuş sənədlərdə və məlumatlarda təhrif olunmuş və ya düzgün olmayan məlumatlar aşkar olunduqda;

5.11.5. işsiz kimi qeydiyyatdan çıxarılma barədə ərizə təqdim edildikdə;

5.11.6. ali və orta ixtisas təhsil müəssisəsinə əyani qəbul olunduqda.

5.12. Aşağıdakı şəxslərin işsiz kimi qeydiyyata alınmasına yol verilmir:

5.12.1. bu Qanunun 4-cü maddəsinə əsasən məşğul şəxslərə aid edilənlər;

5.12.2. 15 yaşına çatmayanlar;

5.12.3. ali və orta ixtisas təhsil müəssisəsində əyani təhsil alanlar;

5.12.4. "Əmək pensiyaları haqqında" və ya "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının qanunları ilə müvafiq olaraq yaşa görə əmək pensiyası və ya yaşa görə müavinət təyin edilmiş şəxslər;

5.12.5. Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 74-cü maddəsinin 1-ci hissəsində və 75-ci maddəsinin 2-ci hissəsinin "b" və "c" bəndlərində göstərilən hallar istisna olmaqla, göndəriş əsasında bağlanılmış əmək müqaviləsinə bu müqavilə ilə müəyyən edilmiş müddətdən əvvəl öz təşəbbüsü ilə xitam verən şəxslər, 6 (altı) ay müddətində.

5.13. İşsiz kimi qeydiyyata alınmayan və ya bu Qanunun 5.11.4-cü maddəsinə əsasən işsiz kimi qeydiyyatı ləğv olunan şəxs, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) işaxtaran kimi qeydiyyatda saxlanılır və işsiz kimi qeydiyyata alınmaq üçün təkrar 1 (bir) aydan sonra müraciət etmək hüququna malikdir.

5.14. Bu Qanunun 5.9.3-cü maddəsinə əsasən işaxtaran kimi qeydiyyatı ləğv edilmiş şəxs həmin hal aradan qaldırıldıqdan sonra işaxtaran kimi qeydiyyata alınmaq üçün təkrar müraciət etmək hüququna malikdir.

**Maddə 6. Münasib iş**

6.1. İşaxtaran üçün onun təhsili, ixtisası, əvvəlki peşəsi üzrə təcrübəsi, səhhəti, təklif edilən iş yerinə ictimai nəqliyyatla gedib-gəlməsi mümkünlüyü nəzərə alınan iş münasib iş sayılır.

6.2. Münasib iş yerinin işaxtaranın yaşayış yerindən maksimum uzaqlığı həmin ərazidə nəqliyyat şəbəkəsinin imkanları nəzərə alınmaqla, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanlar (qurumlar) tərəfindən müəyyən edilir.

6.3. İşsizlikdən sığorta ödənişinin "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş ödənilmə müddəti

qurtardıqdan sonra, münasib iş təklif edilməsi mümkün olmayan işsiz şəxslər üçün, onların təhsilini, ixtisasını, səhhətini, iş təcrübəsini nəzərə almaqla, yeni peşəyə (ixtisasa) yiyələnməsini tələb etməyən iş də münasib iş sayılır.

6.4. Təhsilinə, ixtisasına və əvvəlki peşəsi üzrə təcrübəsinə uyğun gəlməyən, qabaqcadan peşə hazırlığı keçməsini tələb etməyən müvəqqəti iş yerləri də daxil olmaqla, əmək qanunvericiliyinin tələblərinə uyğun gələn, haqqı ödənilən işlər aşağıdakı şəxslər üçün münasib iş sayılır:

6.4.1. 3 ildən artıq işləməyənlər, peşəsi (ixtisası) olmayanlar;

6.4.2. malik olduğu peşə üzrə əlavə təhsildən, ikinci uyğun peşəyə yiyələnməkdən, yaxud işsizlikdən sığorta ödənişinin ödənilməsi müddəti qurtardıqdan sonra yeni peşə öyrənməkdən imtina edənlər;

6.4.3. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) 24 aydan çox qeydiyyatda olanlar.

6.5. İşaxtaranın razılığı olmadan yeni işlə əlaqədar onun yaşayış yerinin dəyişməsi tələb olunduqda, eləcə də əmək şəraiti əməyin mühafizəsi normalarına uyğun gəlmədikdə ona təklif olunan iş münasib iş sayıla bilməz.

6.6. İşaxtaran və işsiz şəxslərə eyni münasib işin təkrar təklif edilməsinə yol verilmir.

**Maddə 7. Vakansiya bankının yaradılması**

7.1. Vakansiya bankı elektron informasiya sistemində işəgötürənlərin yeni yaradılan iş yerləri və vakansiyalar barədə bu Qanunun 18.3-cü maddəsinə uyğun olaraq həmin sistemə daxil etdikləri məlumatlar əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən yaradılır.

7.2. Elektron informasiya sistemi işəgötürənlərin Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 3-cü maddəsinin 5-1-ci hissəsinə və bu Qanunun 7.1-ci maddəsinə uyğun olaraq həmin sistemə daxil etdikləri məlumatlar əsasında hər bir işəgötürən üzrə ştat vahidlərinə dair cədvəl yaradır.

7.3. Vakansiya bankının yaradılmasında fərdi məlumatların informasiya ehtiyatlarının formalaşdırılması və informasiya sistemlərinin yaradılması, onlara xidmət göstərilməsi fəaliyyətinə lisenziyası olan və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) elektron qaydada informasiya mübadiləsinə dair razılaşması olan hüquqi şəxslər tərəfindən toplanılmış informasiya ehtiyatlarından istifadə edilə bilər.

7.4. Bu Qanunun 7.2-ci maddəsində nəzərdə tutulmuş məlumatları bu Qanunun 18.3-cü maddəsində nəzərdə tutulmuş müddətdə elektron informasiya sisteminə daxil etməyən işəgötürənlər qanunla müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

**Maddə 8. Məşğulluq sahəsində dövlətin vəzifələri**

8.0. Məşğulluq sahəsində dövlətin vəzifələri aşağıdakılardır:

8.0.1. məşğulluq sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi;

8.0.2. istehsal qüvvələrinin səmərəli yerləşdirilməsinə, yeni texnologiyaların yaradılmasına, peşə bacarıqlarının inkişaf etdirilməsinə, fərdi qaydada sahibkarlığın və əmək fəaliyyətinin təşkilinə və inkişafına, çevik iş rejiminin tətbiqinin həvəsləndirilməsinə yönəldilən maliyyə-kredit, sığorta, investisiya və vergi siyasəti tədbirlərinin hazırlanması;

8.0.3. işəgötürənlərə yeni iş yerlərinin yaradılmasına, mövcud iş yerlərinin saxlanılmasına və inkişaf etdirilməsinə köməklik göstərən tədbirlərin hazırlanması;

8.0.4. irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, sağlamlıq imkanlarının məhdudluğu (onların məhdud imkanlarına görə həyata keçirilməsi çətinləşən hallardan başqa) və ailə vəziyyətindən, ictimai-sosial mənşəyindən, yaşayış yerindən, əmlak vəziyyətindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq bütün şəxslərə əmək və məşğulluğu sərbəst seçmək hüququnun həyata keçirilməsində bərabər imkanların təmin edilməsi;

8.0.5. şəxslərin qanun çərçivəsində həyata keçirilən əmək və sahibkarlıq təşəbbüsünün müdafiə edilməsi, sahibkarlığın və özünüməşğulluğun inkişaf etdirilməsi məqsədi ilə onlara köməklik göstərilməsi;

8.0.6. əmək fəaliyyətinin və məşğulluq növünün seçilməsində şəxslərin öz iradəsini sərbəst ifadə etməsinə şərait yaradılması;

8.0.7. işaxtaran və işsiz şəxslərin sosial müdafiəsinin təmin edilməsi, işə düzəlməkdə çətinlik çəkən şəxslərin məşğulluğunun təmin edilməsinə köməklik göstərən tədbirlərin görülməsi;

8.0.8. məşğulluq sahəsində fəaliyyətin iqtisadi və sosial siyasətin digər istiqamətləri ilə əlaqələndirilməsi;

8.0.9. sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslər üçün əlavə iş yerləri yaradan işəgötürənlərin həvəsləndirilməsi;

8.0.10. məşğulluğun təmin edilməsinə

yönəldilmiş tədbirlərin hazırlanmasında və həyata keçirilməsində, onların yerinə yetirilməsinə nəzarət sahəsində dövlət orqanlarının, həmkarlar ittifaqlarının, işəgötürənlərin birliklərinin fəaliyyətinin əlaqələndirilməsi;

8.0.11. Azərbaycan Respublikası vətəndaşlarının ölkə hüdudlarından kənarda, habelə daxili əmək bazarının qorunması şərti ilə vətəndaşlığı olmayan şəxslərin və əcnəbilərin Azərbaycan Respublikasının ərazisində əmək fəaliyyəti ilə məşğul olmasına şərait yaradılması;

8.0.12. beynəlxalq əmək normalarına riayət olunması;

8.0.13. qeyri-formal məşğulluğun qarşısının alınmasına yönəldilmiş stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi;

8.0.14. təhsil sisteminin əmək bazarının tələblərinə uyğunlaşdırılması;

8.0.15. işsizlikdən icbari sığortanın tətbiqi.

## 2-ci fəsil
## MƏŞĞULLUQ SAHƏSİNDƏ ŞƏXSLƏRİN HÜQUQLARI VƏ DÖVLƏT TƏMİNATLARI

**Maddə 9. Məşğulluq sahəsində şəxslərin hüquqları**

9.1. Məşğulluq sahəsində şəxslər aşağıdakı hüquqlara malikdirlər:

9.1.1. fəaliyyət növü, peşə, məşğuliyyət və iş yerini sərbəst seçmək;

9.1.2. işəgötürənlərə bilavasitə müraciət etmək yolu ilə, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) pulsuz vasitəçiliyi ilə və ya əmək yarmarkaları, əmək birjaları, kütləvi informasiya vasitələrində və internet resurslarında elanlar verilməsi yolu ilə və qanunla qadağan edilməyən digər vasitələrlə iş yerini sərbəst seçmək;

9.1.3. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) məşğulluq növünü, iş yerini və iş rejimini seçmək məqsədi ilə pulsuz peşəyönümü məsləhətləri almaq, peşə hazırlığına və əlavə təhsilə cəlb olunmaq, habelə əmək bazarına dair məlumat əldə etmək;

9.1.4. əmək bazarında həyata keçirilən aktiv məşğulluq tədbirlərində iştirak etmək;

9.1.5. "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada və şərtlərlə işsizlikdən sığorta olunmaq və sığorta ödənişi almaq;

9.1.6. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) və yaxud onun vəzifəli şəxslərinin hərəkət və ya hərəkətsizliyindən inzibati və ya məhkəmə qaydasında şikayət etmək.

9.2. Aşağıdakı hallar istisna olmaqla şəxslərin məcburi əməyə cəlb edilməsinə yol verilmir:

9.2.1. məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olduqda;

9.2.2. hərbi xidmət zamanı;

9.2.3. hərbi və fövqəladə vəziyyət zamanı.

**Maddə 10. Əmək hüququnun həyata keçirilməsində dövlət təminatları**

10.1. Dövlət hər bir şəxsə əmək hüququnun həyata keçirilməsində aşağıdakı təminatları verir:

10.1.1. məşğulluq növünün, o cümlədən müxtəlif rejimli işin sərbəst seçilməsinə;

10.1.2. işdən əsassız çıxarılanların və ya işə qəbuldan əsassız imtina olunanların Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğun olaraq hüquqi müdafiəsinə;

10.1.3. "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada və şərtlərlə işsizlikdən sığorta olunmasına.

10.2. Dövlət işaxtaranlara və işsiz şəxslərə aşağıdakı təminatları verir:

10.2.1. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) vasitəçiliyi ilə münasib işin seçilməsinə və işədüzəlməyə köməklik göstərilməsinə;

10.2.2. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) göndərişi ilə peşəyönümünə və peşə hazırlığına;

10.2.3. şəxsin yaş və başqa xüsusiyyətləri nəzərə alınmaqla haqqı ödənilən ictimai işlərdə iştirakına;

10.2.4. "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada və şərtlərlə işsizlikdən sığorta ödənişinin ödənilməsinə;

10.2.5. özünüməşğulluğa köməklik göstərilməsinə;

10.2.6. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həyata keçirilən digər aktiv məşğulluq tədbirlərində iştirakına;

10.2.7. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) göndərişi ilə işə qəbul olunarkən Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulan hallarda pulsuz tibbi müayinədən keçməsinə.

**Maddə 11. Sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslərin məşğulluğu üçün əlavə təminatlar**

11.1. Dövlət sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərə əlavə iş yerləri və sosial müəssisələr yaratmaq, onlar üçün uyğunlaşdırılmış təlim proqramları əsasında peşə

hazırlığı kursları təşkil etmək, habelə kvota müəyyən etmək yolu ilə əlavə təminatlar verir.

11.2. Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslər üçün kvota tətbiq edilməsi qaydası və kvota şamil edilməyən müəssisələrin siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

11.3. Kvotanın miqdarı müvafiq inzibati ərazi vahidində əmək bazarındakı vəziyyətdən asılı olaraq, müəssisələrdəki işçilərin orta siyahı sayının 5 faizindən çox olmamaq şərti ilə müəyyən edilir.

11.4. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən göndərilmiş sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxsləri onlar üçün kvota üzrə müəyyən olunmuş iş yerlərinə qəbul etməyən işəgötürənlər qanunla müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

## 3-cü fəsil
## MƏŞĞULLUĞUN TƏŞKİLİ

**Maddə 12. Respublika və ərazi məşğulluq proqramları**

12.1. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanlar (qurumlar) və yerli özünüidarəetmə orqanları, işəgötürənlər birlikləri və həmkarlar ittifaqları bu Qanuna uyğun olaraq məşğulluğa kömək göstərilməsi tədbirlərini nəzərdə tutan respublika və ərazi məşğulluq proqramları hazırlayırlar.

12.2. Respublika və ərazi məşğulluq proqramları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanlar (qurumlar) tərəfindən hazırlanan iqtisadi və sosial inkişaf proqnozlarının göstəriciləri əsasında hazırlanır.

12.3. Respublika və ərazi məşğulluq proqramlarını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanlar (qurumlar) təsdiq edir və onların həyata keçirilməsini təmin edir.

**Maddə 13. Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında məşğulluğu**

Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikası ərazisində əmək fəaliyyəti ilə bağlı məsələlər Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinə, bu Qanuna, məşğulluq sahəsində Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarına və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tənzimlənir.

**Maddə 14. İşədüzəltmədə vasitəçilik fəaliyyəti**

14.1. Azərbaycan Respublikasında işaxtaran və işsiz şəxslərin işə düzəlməsində, habelə Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə işə düzəlməsində vasitəçilik fəaliyyəti (bundan sonra - işədüzəltmədə vasitəçilik fəaliyyəti) yalnız hüquqi şəxslər tərəfindən bu Qanunun tələbləri nəzərə alınmaqla həyata keçirilir.

14.2. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) işədüzəltmədə vasitəçilik fəaliyyəti ilə məşğul olan hüquqi şəxslərin reyestrini elektron formada aparır.

14.3. İşədüzəltmədə vasitəçilik fəaliyyəti ilə məşğul olan hüquqi şəxslərin reyestrinin aparılması qaydasını və həmin hüquqi şəxslərə dair tələbləri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müəyyən edir.

14.4. İşaxtaran və işsiz şəxslərin işə düzəlməsində vasitəçilik fəaliyyətini həyata keçirən hüquqi şəxslər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş qaydada və formada iş üçün müraciət edən və işlə təmin olunan şəxslərin sayı barədə məlumatları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim edirlər.

14.5. İşaxtaran və işsiz şəxslərin işə düzəlməsində vasitəçilik fəaliyyətini həyata keçirən hüquqi şəxslər toplanılmış informasiya ehtiyatlarına dair müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) elektron qaydada qarşılıqlı məlumat mübadiləsini təmin edirlər.

14.6. Bu Qanunun 14-cü maddəsinin tələblərini pozmaqla işədüzəltmədə vasitəçilik fəaliyyətini həyata keçirən hüquqi şəxslər qanunla müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

**Maddə 15. Məşğulluğa kömək göstərən əlaqələndirmə komitələri**

15.1. Məşğulluq sahəsində razılaşdırılmış qərarların hazırlanması məqsədi ilə həmkarlar ittifaqının, işəgötürənlərin birliklərinin, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun), aidiyyəti dövlət və yerli özünüidarəetmə orqanlarının, sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslərin mənafeyini təmsil edən ictimai birliklərin bərabər sayda nümayəndələrindən ibarət məşğulluğa kömək göstərən yerli əlaqələndirmə komitələri (bundan sonra - əlaqələndirmə komitələri) yaradılır.

15.2. Əlaqələndirmə komitələrinin səlahiyyətləri, fəaliyyət qaydası və tərkibi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən Əsasnamə ilə tənzimlənir.

**Maddə 16. Məşğulluğun təmin edilməsində yerli özünüidarəetmə orqanlarının iştirakı**

16.1. Yerli özünüidarəetmə orqanlarının məşğulluq sahəsində aşağıdakı hüquqları vardır:

16.1.1. öz vəsaiti hesabına işaxtaran və işsiz şəxslər üçün haqqı ödənilən ictimai işlər təşkil etmək;

16.1.2. məşğulluğa kömək göstərilməsi məqsədi ilə bu Qanunun 12-ci maddəsinə uyğun olaraq məşğulluq proqramlarının hazırlanmasında iştirak etmək;

16.1.3. məşğulluğa kömək göstərən əlaqələndirmə komitələrinin işində iştirak etmək;

16.1.4. "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununun 4-cü maddəsinə uyğun olaraq yerli sosial müdafiə və sosial inkişaf proqramlarında əhalinin məşğulluğuna kömək göstərilməsi ilə bağlı əlavə təminatlar nəzərdə tutmaq.

16.2. Yerli özünüidarəetmə orqanları "Ailə kəndli təsərrüfatı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq ailə kəndli təsərrüfatlarını uçota alır və uçota aldığı gündən 1 (bir) ay ərzində bu barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) məlumat verirlər.

**Maddə 17. Məşğulluğun təmin edilməsində həmkarlar ittifaqlarının iştirakı**

17.1. Həmkarlar ittifaqlarının, onların seçkili orqanlarının məşğulluq sahəsində aşağıdakı hüquqları vardır:

17.1.1. işçilərin kütləvi surətdə sərbəstləşdirilməsi ilə əlaqədar tədbirlərin başqa vaxta keçirilməsi və ya müvəqqəti dayandırılması haqqında işəgötürənlərə və ya onların yuxarı orqanlarına təkliflər vermək;

17.1.2. Azərbaycan Respublikasının Əmək Məcəlləsinə və "Həmkarlar ittifaqları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq məşğulluğun təmin edilməsi, işə (xidmətə) qəbul, işdənçıxarma, sosial güzəştlərin və təminatların verilməsi məsələlərində şəxslərin müdafiəsini təmin etmək;

17.1.3. peşə standartlarının hazırlanması, qəbulu və tətbiqi, işçilərin təlimi, bacarıqlarının artırılması və qiymətləndirilməsi işinin həyata keçirilməsi ilə bağlı təkliflər vermək və onların həyata keçirilməsində iştirak etmək.

17.2. İşəgötürənin təşəbbüsü ilə istehsalın səmərələşdirilməsi, əməyin təşkilinin təkmilləşdirilməsi, müəssisənin ləğv edilməsi, işçilərin sayının və ya ştatların ixtisar edilməsi ilə əlaqədar olaraq işçilərin sərbəstləşdirilməsi, Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulan hallar istisna olmaqla, müvafiq həmkarlar ittifaqı orqanlarına qabaqcadan (azı 3 ay əvvəl) yazılı məlumat verməklə, işçilərin hüquqlarının və mənafelərinin gözlənilməsi barədə onlarla danışıqlar aparılmaqla həyata keçirilir.

17.3. İşəgötürənlər (onların birlikləri) və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanlar (qurumlar), həmkarlar ittifaqlarının təklifi ilə məşğulluq məsələlərinə dair birgə məsləhətləşmələr aparırlar. Məsləhətləşmələrin yekunlarına görə məşğulluğa kömək göstərilməsinə dair tədbirlər Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğun olaraq kollektiv müqavilələrdə (sazişlərdə) nəzərdə tutula bilər.

**Maddə 18. Məşğulluğun təmin edilməsində işəgötürənlərin iştirakı**

18.1. İşəgötürənlər dövlət məşğulluq siyasətinin həyata keçirilməsinə aşağıdakı əsaslarla kömək göstərirlər:

18.1.1. Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğun olaraq əmək münasibətlərini tənzimləyən əmək müqavilələrinin (kontraktların), kollektiv müqavilələrin və ya sazişlərin şərtlərinə əməl edilməsi;

18.1.2. istehsalatın dayandırılması və ya işçilərin sərbəstləşdirilməsi təqdirində onların müdafiəsi üçün kollektiv müqavilələrdə (sazişlərdə) nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi;

18.1.3. əlavə təhsil üçün şəraitin yaradılması və əlavə təhsilin təşkili;

18.1.4. sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslərin bu Qanunla müəyyən olunmuş qaydada işə düzəldilməsi;

18.1.5. peşə standartlarının hazırlanması və tətbiqi, həmçinin peşə bacarıqlarının artırılması və qiymətləndirilməsi işinin həyata keçirilməsində iştirak edilməsi.

18.2. İşçilərin sayı və ya ştatları ixtisar edildikdə işəgötürənlər işdən çıxarılacaq işçilərin peşəsini, ixtisasını və əməkhaqqının məbləğini göstərməklə, onların sərbəstləşdiriləcəyi barədə Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə müəyyən edilən xəbərdarlıq müddətindən az olmayaraq əvvəlcədən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) rəsmi məlumat verməlidirlər.

18.3. İşəgötürənlər yeni iş yeri yarandığı və ya iş yeri boşaldığı gündən ən geci 5 (beş) iş günü müddətində əməkhaqqı göstərilməklə bu barədə məlumatları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş qaydada və formada elektron informasiya sisteminə daxil etməlidirlər.

18.4. İşəgötürənlər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma), həmin

orqanın göndərişi ilə işə qəbul edilənlər, o cümlədən kvota üzrə işə qəbul edilənlər və işdən çıxarılanlar haqqında aylıq hesabatlar təqdim etməlidirlər.

18.5. Bu Qanunun 18.4-cü maddəsində nəzərdə tutulan hesabatlar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş qaydada və formada elektron informasiya sisteminə daxil edilir.

18.6. İşəgötürənlər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) göndərişi ilə gəlmiş şəxsləri onlara bilavasitə müraciət etmiş şəxslərlə bərabər əsaslarla işə qəbul edirlər.

18.7. İşəgötürən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) göndərişi təqdim edildiyi gündən ən geci 5 (beş) iş günü müddətində boş iş yerinin tutulub-tutulmaması ilə bağlı qərarını qəbul edərək müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim etməlidir.

18.8. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə başqa hal nəzərdə tutulmayıbsa, xarici dövlətlərin hüquqi və fiziki şəxsləri, beynəlxalq təşkilatlar, eləcə də vətəndaşlığı olmayan şəxslər tərəfindən təsis edilən və Azərbaycan Respublikasının Mülki, Əmək, Miqrasiya və Vergi məcəllələrinə uyğun olaraq fəaliyyət göstərən işəgötürənlər özlərinin işçi qüvvəsinə olan tələbatını (rəhbər və mütəxəssis vəzifələri də daxil olmaqla), ilk növbədə, yerli kadrlardan istifadə etməklə və onların hazırlanması vasitəsilə ödəməlidirlər.

**Maddə 19. İşaxtaranların və işsiz şəxslərin sosial müdafiəsi ilə bağlı tədbirlərin maliyyələşdirilməsi**

İşaxtaran və işsiz şəxslərin sosial müdafiəsi ilə əlaqədar tədbirlər "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş mənbələrdən maliyyələşdirilir.

**Maddə 20. İşaxtaran və işsiz şəxslərin peşə hazırlığı**

20.1. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) qeydiyyata alınmış işaxtaran və işsiz şəxslərin peşə hazırlığı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) göndərişi ilə aşağıdakı hallarda həyata keçirilir:

20.1.1. işaxtaran və işsiz şəxslər lazımi peşə və ya ixtisası olmadığına görə onun üçün münasib iş seçmək mümkün olmadıqda;

20.1.2. işaxtaran və işsiz şəxs əvvəlki peşə (ixtisas) üzrə işləmək qabiliyyətini itirdikdə.

20.2. İşsiz şəxslərin peşə hazırlığı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən ödənişsiz təşkil olunur. İşaxtaran şəxslər peşə hazırlığına ödənişli əsaslarla cəlb olunurlar.

20.3. Peşə hazırlığının təşkili zamanı bu Qanunun 6.4.1-ci maddəsində nəzərdə tutulan şəxslər üstün hüquqa malikdirlər.

20.4. İşaxtaran və işsiz şəxslərin peşə hazırlığının təşkili qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**Maddə 21. Haqqı ödənilən ictimai işlərin təşkili**

21.1. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq müəssisələrdə işsiz şəxslərin müvəqqəti məşğulluğunu təmin etmək məqsədi ilə onların müqavilələr üzrə ödənişli ictimai işlərə cəlb olunmasını təşkil edirlər.

21.2. Haqqı ödənilən ictimai işlərdə iştirak etmək istəyən işsiz şəxslərlə Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğun olaraq müddətli əmək müqaviləsi bağlanır. İşsizlikdən sığorta ödənişi almayan işsiz şəxslər belə müqavilələrin bağlanmasında üstün hüquqa malikdirlər.

21.3. Haqqı ödənilən ictimai işlərə cəlb olunan işsiz şəxslər faktiki yerinə yetirilən işə görə, lakin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən minimum əməkhaqqı məbləğindən az olmamaq şərti ilə əməkhaqqı alırlar.

21.4. Haqqı ödənilən ictimai işlərin maliyyələşdirilməsi haqqı ödənilən ictimai işləri təşkil edən müəssisələrin vəsaiti hesabına və ya "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 19.0.2.3-cü maddəsinə uyğun olaraq işsizlikdən sığorta vəsaiti hesabına həyata keçirilir.

21.5. Haqqı ödənilən ictimai işlərin təşkili qaydaları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunur.

**Maddə 22. Peşəyönümünə dair məsləhət xidmətləri**

22.1. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) gənclərin (təhsil müəssisələrinin tələbə və şagirdlərinin), işaxtaran və işsiz şəxslərin peşəyönümünün təşkili üçün onlarla müsahibələr və testlər keçirilməklə, təhsilinə, bacarığına və şəxsi keyfiyyətlərinə uyğun olaraq peşə və ixtisasının seçiminə, peşə maraqlarının formalaşdırılmasına yönəldilmiş məs-

ləhət xidmətləri göstərir.

22.2. Peşəyönümünə dair məsləhət xidmətləri aşağıdakı istiqamətlərdə göstərilir:

22.2.1. əmək bazarının cari vəziyyəti və əmək bazarında ən çox tələb olunan peşə və ixtisaslar barədə məlumatlandırma;

22.2.2. mövcud peşə və ixtisas üzrə işlə təmin edilmə və ya peşə hazırlığı və əlavə təhsilə cəlb olunma imkanları barədə məlumatlandırma;

22.2.3. işsiz şəxsin sosial-psixoloji xüsusiyyətləri, peşə, bilik, bacarıq və səriştələri, sağlamlıq vəziyyəti nəzərə alınaraq, əmək bazarının tələbatı əsasında ona iş yerinin və peşənin seçimində köməkliyin göstərilməsi.

22.3. Peşəyönümünə dair məsləhət xidmətlərinin göstərilməsi qaydasını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) təsdiq edir.

**Maddə 23. Əmək birjalarının və əmək yarmarkalarının təşkili**

23.1. Əmək bazarında tələb və təklif, habelə daxil olan sifarişlər əsasında əhalinin müvəqqəti məşğulluğunun təmin olunması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təşkil edilən əmək birjaları vasitəsilə həyata keçirilir.

23.2. İşaxtaran və işsiz şəxslərin müvafiq inzibati ərazi vahidi üzrə mövcud olan vakant iş yerləri haqqında məlumat əldə etməsi, aktiv məşğulluq tədbirlərinə cəlb olunması, habelə işəgötürənlərin qısa müddət ərzində zəruri peşəyə, ixtisasa və təcrübəyə malik olan kadrların seçiminə köməklik göstərilməsi məqsədi ilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanlar (qurumlar) tərəfindən əmək yarmarkaları təşkil edilir.

23.3. Əmək birjalarının və əmək yarmarkalarının təşkili və fəaliyyəti qaydasını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) təsdiq edir.

**Maddə 24. Özünüməşğulluğa kömək göstərilməsi**

24.1. İşsiz şəxslərin özünüməşğulluğunun təşkili müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həyata keçirilir və aşağıdakı mərhələlərdən ibarətdir:

24.1.1. özünüməşğulluğun təşkili ilə bağlı işsiz şəxslərə məsləhətlərin və məlumatların verilməsi;

24.1.2. əmək bazarının təhlili əsasında iqtisadiyyatın sahələri üzrə özünüməşğulluq istiqamətinin seçilməsinə və təşkilinə kömək edilməsi;

24.1.3. özünüməşğulluğun təşkili üçün biznes-planın hazırlanmasında yardım edilməsi;

24.1.4. seçilmiş özünüməşğulluq istiqamətinin təşkili üçün işsiz şəxslərə natura şəklində material, avadanlıq və digər əmlakın (bundan sonra - əmlak) 2 (iki) il müddətinə müqavilə əsasında verilməsi;

24.1.5. özünüməşğulluğa cəlb olunmuş şəxsin fəaliyyətinin bu Qanunun 24.1.4-cü maddəsində göstərilən müddət ərzində monitorinqi.

24.2. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) özünüməşğulluğa cəlb olunmuş şəxsin fəaliyyətinin müqavilə müddəti ərzində monitorinqini aparır və müqavilə müddətinin sonuna həmin şəxsin fəaliyyəti təqdim edilmiş biznes-plana uyğun olduqda, özünüməşğulluğun təşkili üçün verilmiş əmlak özünüməşğulluğa cəlb olunmuş şəxsin mülkiyyətinə verilir.

24.3. Özünüməşğulluğa cəlb olunmuş şəxs ona bu Qanunun 24.1.4-cü maddəsinə uyğun olaraq müqavilə əsasında verilmiş əmlakdan 1 (bir) il ərzində üzrlü səbəb olmadan istifadə etmədikdə, həmin əmlakı və yaxud onun dəyərini əmlak qaytarılan vaxt müəyyən edilmiş bazar qiymətinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) qaytarır.

24.4. Özünüməşğulluğa cəlb olunmuş şəxs ona verilmiş əmlaka müqavilə müddətində qəsdən ziyan vurduqda və ya həmin əmlakdan təyinatı üzrə istifadə etmədikdə Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq vurulmuş ziyanın əvəzini müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) ödəməlidir.

24.5. Bu Qanunun 24.3-cü maddəsində göstərilən bazar qiyməti müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən özünüməşğulluğa cəlb olunmuş şəxsin iştirakı ilə əmlakın qaytarıldığı gündən çoxu 1 (bir) ay əvvəl eyni (analoji) əmlak üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) dərc etdiyi qiymətlərə əsasən müəyyənləşdirilir.

24.6. Bu Qanunun 24.3-cü maddəsinə uyğun olaraq özünüməşğulluğa cəlb olunmuş şəxsə verilmiş əmlak geri alındıqda və bu əmlakın digər özünüməşğulluğa cəlb olunmuş şəxsə verilməsi mümkün olmadıqda, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada həmin əmlak açıq hərracların keçirilməsi vasitəsilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən satılır.

24.7. Özünüməşğulluğa cəlb olunmuş şəxs bu Qanunun 24.3-cü və 24.4-cü maddələrinə uyğun olaraq ona verilmiş əmlakın dəyərini qaytarmaqdan və ya həmin əmlaka vurulmuş ziyanın əvəzini ödəməkdən imtina etdikdə tərəflər arasında yaran-

mış mübahisələr məhkəmə qaydasında həll olunur.

24.8. Bu Qanunun 4.1.3-cü maddəsində göstərilən mülkiyyətində kənd təsərrüfatına yararlı torpaq payı olub digər məşğulluğu olmayan şəxslər də müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən 1 (bir) il ərzində özünüməşğulluğa cəlb olunmuş işsiz şəxslərin ümumi sayının 50 faizindən çox olmamaq şərti ilə özünüməşğulluğa cəlb edilirlər.

24.9. İşsiz şəxslərin özünüməşğulluğunun təşkili zamanı ünvanlı dövlət sosial yardımı alan şəxslərə, əlillərə və sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara, bir ildən artıq işsiz kimi qeydiyyatda olanlara, pensiya yaşına iki ildən az qalmış şəxslərə, cəzaçəkmə yerlərindən azad edilmiş işsiz şəxslərə üstünlük verilir.

24.10. İşsizlikdən sığorta ödənişini alan işsiz şəxslər özünüməşğulluğa cəlb edilmirlər.

24.11. İşsiz şəxslərin özünüməşğulluğunun təşkili qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**Maddə 25. İşəgötürənlərlə birlikdə işçilərin əməkhaqqının maliyyələşdirilməsi**

25.1. Sosial iş yerlərində işçilərin əməkhaqqının bir hissəsinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən maliyyələşdirilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

25.2. Əməkhaqqının işsizlikdən sığorta vəsaiti hesabına maliyyələşdirilən hissəsinin məbləği müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən əvvəlki il üçün müəyyən olunmuş ölkə üzrə orta aylıq nominal əməkhaqqından çox, lakin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən minimum aylıq əməkhaqqından az olmamaq şərti ilə işəgötürənin ştat vahidi üzrə nəzərdə tutulmuş əməkhaqqının və əməkhaqqından tutulmaların (əməyin ödənişi fondundan hesablanan məcburi dövlət sosial sığorta haqqı, işsizlikdən sığorta haqqı, istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqı) 50 faizini təşkil edir.

25.3. Sosial iş yerlərində 2 (iki) ildən az olmayan müddətə bağlanan əmək müqaviləsi ilə işə götürülmüş işçilərin əməkhaqqının bir hissəsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən 3 (üç) aydan az və 12 (on iki) aydan çox olmayan müddətdə maliyyələşdirilir.

25.4. Əməkhaqqı sistemi ilə nəzərdə tutulan mükafatlar, əməkhaqqına əlavələr, artımlar (əmsallar), habelə iş vaxtından kənar vaxtlarda görülən işlərə görə verilən ödəmələr və digər ödənişlər Azərbaycan Respublikasının Əmək Məcəlləsində müəyyən edilmiş qaydada işəgötürənlərin vəsaiti hesabına maliyyələşdirilir.

25.5. Sosial iş yerlərinin təşkili zamanı əlillərə və sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara, gənclərə, cəzaçəkmə yerlərindən azad edilmiş şəxslərə və bir ildən artıq işsiz kimi qeydiyyatda olan şəxslərə üstünlük verilir.

25.6. Hər bir işəgötürən üzrə sosial iş yerlərinin sayı həmin işəgötürənin işçilərinin ümumi sayının 5 faizindən çox olmamalıdır.

25.7. Sosial iş yerləri üzrə əməkhaqqının məbləği işəgötürənin digər iş yerləri üzrə əməkhaqqının məbləğinin 10 faizdən çox fərqlənə bilməz.

**Maddə 26. Sosial müəssisələrin və əlavə iş yerlərinin yaradılması və məqsədli proqramların həyata keçirilməsi**

26.1. Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin məşğulluğunun təmin olunması məqsədi ilə işəgötürən və ya müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən kvotadan əlavə iş yerləri, sosial müəssisələr yaradıla və məqsədli proqramlar həyata keçirilə bilər. Bu halda müəssisədə mövcud olan daimi vakansiyalar əlavə iş yerləri hesab edilmir.

26.2. Sosial müəssisələrin və kvotadan əlavə iş yerlərinin standartları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**Maddə 27. Fərdi məşğulluq proqramı**

27.1. İşsiz kimi qeydiyyata alınmış şəxsin əmək bazarına yenidən qayıtması və ona işə düzəlməkdə kömək göstərilməsi məqsədi ilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən fərdi məşğulluq proqramı tərtib olunur.

27.2. İşsiz şəxs hər ay həmin ayın sonuncu iş günü bitənədək müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) fərdi məşğulluq proqramında nəzərdə tutulmuş aktiv məşğulluq tədbirlərində iştirakını müəyyənləşdirən fərdi məşğulluq proqramının icrası barədə elektron qaydada hesabat təqdim edir.

27.3. Fərdi məşğulluq proqramının icrası barədə hesabat işsiz şəxs tərəfindən təqdim edildikdən sonra müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) sığorta ödənişinin verilib-verilməməsi, işsiz kimi qeydiyyatın saxlanılıb-saxlanılmaması barədə qərar qəbul edir və ya fərdi məşğulluq proqramında dəyişiklik edilməsinə dair tədbir görür.

### 4-cü fəsil
### MƏŞĞULLUQ SAHƏSİNDƏ SOSİAL TƏMİNATLAR

**Maddə 28. İşaxtaran və işsiz şəxslərin sosial təminatları**

28.1. İşaxtaran və işsiz şəxslərə dövlət aşağıdakı təminatları verir:

28.1.1. müəssisədən sərbəstləşdirilmiş işçilərə Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 77-ci maddəsinə uyğun olaraq təminatların verilməsi;

28.1.2. peşə hazırlığına cəlb olunduğu dövrdə təqaüdün ödənilməsi;

28.1.3. "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 13.1-ci maddəsinə uyğun olaraq işsizlikdən sığorta ödənişi almaq hüququ olanlara sığorta ödənişinin verilməsi;

28.1.4. Haqqı ödənilən ictimai işlərə cəlb olunması;

28.1.5. özünüməşğulluğa kömək göstərilməsi;

28.1.6. işəgötürənlərlə birlikdə işçilərin əməkhaqqının maliyyələşdirilməsi;

28.1.7. sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin məşğulluğunun təmin olunması üçün əlavə iş yerlərinin və sosial müəssisələrin yaradılması və məqsədli proqramların həyata keçirilməsi;

28.1.8. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təklifi ilə bir şəhər və (və ya) rayon (şəhər rayonları istisna olmaqla) inzibati ərazi vahidindən digərinə işə (peşə kurslarına) göndərilməsi ilə əlaqədar şəxsin çəkdiyi xərclərin (taksi xərcləri istisna olmaqla) kompensasiya edilməsi.

28.2. Qanunla müəyyən edilmiş qaydada şəxsin işsizlikdən sığorta ödənişi aldığı və aktiv məşğulluq tədbirlərinə cəlb olunduğu müddət, habelə xarici ölkələrdə qanuni əsaslarla əmək fəaliyyəti ilə məşğul olduğu müddət ümumi əmək stajına daxil edilir.

28.3. Bu Qanunun 28.1-ci maddəsi ilə müəyyən edilən təminatlar üzrə ödənişlər nağdsız qaydada həyata keçirilir.

**Maddə 29. Peşə hazırlığına cəlb olunan işsiz şəxsə verilən təqaüd**

29.1. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) göndərişi ilə peşə hazırlığı aldığı dövrdə işsiz şəxsə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi minimum aylıq əməkhaqqı məbləğində təqaüd verilir.

29.2. İşsizlikdən sığorta ödənişi alan işsiz şəxs peşə hazırlığına cəlb olunduqda ona işsizlikdən sığorta ödənişini aldığı dövrdə təqaüd verilmir.

29.3. Peşə hazırlığına cəlb olunan işsiz şəxsə verilən təqaüdün ödənilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

### 5-ci fəsil
### QEYRİ-FORMAL MƏŞĞULLUQ

**Maddə 30. Qeyri-formal məşğulluğun müəyyənləşdirilməsi**

30.1. Bu Qanunun 1.1.9-cu maddəsində göstərilən hallarda bu Qanunun 4.4-4.8-ci maddələrinə əsasən şəxsin məşğulluğuna dair məlumatlar məşğul şəxslərin reyestrinə daxil edilmədikdə, qeyri-formal məşğulluğun aşkar edilməsi və qarşısının alınması məqsədi ilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) məşğulluğun leqallaşdırılması sahəsində nəzarəti həyata keçirən orqanlar tərəfindən fəaliyyət istiqamətlərinə uyğun olaraq birgə nəzarət tədbirləri həyata keçirilir.

30.2. Qeyri-formal məşğulluğun leqallaşdırılması sahəsində nəzarəti həyata keçirən orqanların bu Qanunun 30.1-ci maddəsində nəzərdə tutulan fəaliyyətinin əlaqələndirilməsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həyata keçirilir.

30.3. Qeyri-formal məşğulluğun leqallaşdırılması sahəsində nəzarət tədbirlərinin keçirilməsi və əlaqələndirilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

30.4. Qeyri-formal məşğulluğun leqallaşdırılması sahəsində nəzarəti həyata keçirən orqanlar nəzarət tədbirlərinin həyata keçirilməsi zamanı qeyri-formal məşğulluq halları ilə bağlı aşkar edilmiş məlumatları qanunla müəyyən edilmiş tədbirlər görülməsi üçün aidiyyəti dövlət orqanlarına, həmin məlumatlara dair müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi formada hesabatı isə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim etməlidirlər.

30.5. Qeyri-formal məşğulluq qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olur.

**Maddə 31. "Qeyri-formal məşğulluğa nəzarət" vahid elektron informasiya ehtiyatı**

31.1. Qeyri-formal məşğulluğun aşkar edilməsi və qarşısının alınması məqsədi ilə əmək ehtiyatları ilə bağlı informasiya ehtiyatlarının, eləcə də qeyri-formal məşğulluğu müəyyən etməyə imkan verən digər informasiya sistemlərinin və ehtiyatlarının əmək müqaviləsi bildirişi üzrə elektron informasiya

sisteminə inteqrasiyası əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən "Qeyri-formal məşğulluğa nəzarət" vahid elektron informasiya ehtiyatı yaradılır.

31.2. "Qeyri-formal məşğulluğa nəzarət" vahid elektron informasiya ehtiyatına inteqrasiyası tələb olunan informasiya sistemlərinin və ehtiyatlarının siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilir.

31.3. Bu Qanunun 30-cu maddəsində nəzərdə tutulmuş nəzarət tədbirlərinin həyata keçirilməsi üçün "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq risk qruplarının müəyyən edilməsi, qeyri-formal məşğulluğun qarşısının alınmasına dair preventiv tədbirlər görülməsi və risk qiymətləndirilməsi sisteminin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanlar (qurumlar) tərəfindən tətbiqi "Qeyri-formal məşğulluğa nəzarət" vahid elektron informasiya ehtiyatı vasitəsilə həyata keçirilir.

**Maddə 32. Qeyri-formal məşğulluq sahəsində maarifləndirmə**

Qeyri-formal məşğulluğun aşkar edilməsi və qarşısının alınması məqsədi ilə qeyri-formal məşğulluğun leqallaşdırılması sahəsində nəzarəti həyata keçirən orqanlar həmkarlar ittifaqları birlikləri və işəgötürənlərin nümayəndəli orqanları (birlikləri), habelə ictimai birliklər birgə maarifləndirmə, məlumatlandırma və təbliğat işini həyata keçirirlər, "Reklam haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq sosial reklamlar sifariş edirlər, xüsusi bülletenlər və digər nəşrlər buraxırlar.

## 6-cı fəsil
## YEKUN MÜDDƏALAR

**Maddə 33. Qanunun pozulmasına görə məsuliyyət və mübahisələrin həlli**

33.1. Bu Qanunun tələblərinin pozulmasına görə fiziki, hüquqi və vəzifəli şəxslər Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş hallarda məsuliyyət daşıyırlar.

33.2. Bu Qanunun tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən tətbiq edilən cərimələrdən toplanılan vəsaitin 25 faizi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanların (qurumların) işçilərinin sosial müdafiəsinin gücləndirilməsi və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) maddi-texniki bazasının yaxşılaşdırılması məqsədi ilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanların (qurumların) hesablarına köçürülür. Bu vəsaitlərin bölgüsü və onlardan istifadə edilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunur.

33.3. Məşğulluq sahəsində mübahisələr inzibati qaydada və məhkəmə qaydasında həll edilir.

**Maddə 34. Məşğulluq sahəsində beynəlxalq əməkdaşlıq**

Məşğulluq sahəsində beynəlxalq əməkdaşlıq Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq həyata keçirilir.

**Maddə 35. Məşğulluq sahəsində nəzarət**

35.1. Bu Qanunun tələblərinə əməl olunmasına nəzarət həmkarlar ittifaqlarının iştirakı ilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həyata keçirilir.

35.2. Bu Qanunun 35.1-ci maddəsində göstərilən nəzarətin həyata keçirilməsi qaydasını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) təsdiq edir.

**Maddə 36. Keçid müddəa**

Bu Qanun qüvvəyə mindiyi günədək işsiz kimi qeydiyyata alınmış şəxslərin qeydiyyatı bu Qanun qüvvəyə mindikdən sonra da saxlanılır.

**Maddə 37. Qanunun qüvvəyə minməsi**

Bu Qanun qüvvəyə mindiyi gündən "Məşğulluq haqqında" Azərbaycan Respublikasının 2001-ci il 2 iyul tarixli 170-IIQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, N 8, maddə 522, N 12, maddə 731; 2003, N 1, maddə 16; 2007, N 10, maddə 938; 2008, N 5, maddə 341, N 7, maddə 602; 2010, N 11, maddə 949; 2011, N 2, maddə 71, N 10, maddə 884; 2014, N 11, maddə 1344, N 12, maddə 1528; 2017, N 7, maddə 1280) ləğv edilir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 29 iyun 2018-ci il*
*N 1196-VQ*

## ”Məşğulluq haqqında” Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1196-VQ nömrəli Qanununun tətbiqi barədə

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Məşğulluq haqqında" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1196-VQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. üç ay müddətində:

1.1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.1.2. həmin Qanunun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanun layihələrini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.1.3. həmin Qanunun 31.2-ci maddəsinə uyğun olaraq, "Qeyri-formal məşğulluğa nəzarət" vahid elektron informasiya ehtiyatına inteqrasiyası tələb olunan informasiya sistemlərinin və ehtiyatlarının siyahısı barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.1.4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.5. həmin Qanunun 4.3-cü maddəsinə uyğun olaraq, məşğul şəxslər barəsində məlumatların əldə olunmasını və reyestrə daxil edilməsi, reyestrin aparılması və ondan istifadə qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

1.1.6. həmin Qanunun 5.1-ci maddəsinə uyğun olaraq, işaxtaran və işsiz şəxslərin qeydiyyata alınması qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

1.1.7. həmin Qanunun 18.3-cü maddəsinə uyğun olaraq, yeni iş yeri və ya boşalan iş yeri barədə məlumatların elektron informasiya sisteminə daxil edilməsi qaydasını və formasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

1.1.8. həmin Qanunun 23.3-cü maddəsinə uyğun olaraq, əmək birjalarının və əmək yarmarkalarının təşkili və fəaliyyəti qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

1.1.9. həmin Qanunun 24.11-ci maddəsinə uyğun olaraq, işsiz şəxslərin özünüməşğulluğunun təşkili qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

1.1.10. həmin Qanunun 26.2-ci maddəsinə uyğun olaraq, sosial müəssisələrin və kvotadan əlavə iş yerlərinin standartlarını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

1.1.11. həmin Qanunun 30.3-cü maddəsinə uyğun olaraq, qeyri-formal məşğulluğun leqallaşdırılması sahəsində nəzarət tədbirlərinin keçirilməsi və əlaqələndirilməsi qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

1.1.12. həmin Qanunun 35.2-ci maddəsinə uyğun olaraq, məşğulluq sahəsində nəzarətin həyata keçirilməsi qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

1.2. dörd ay müddətində:

1.2.1. həmin Qanunun 14.3-cü maddəsinə uyğun olaraq, işədüzəlmədə vasitəçilik fəaliyyəti ilə məşğul olan hüquqi şəxslərin reyestrinin aparılması qaydasını və həmin hüquqi şəxslərə dair tələbləri təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.2.2. həmin Qanunun 15.2-ci maddəsinə uyğun olaraq, əlaqələndirmə komitələrinin əsasnaməsini təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.2.3. həmin Qanunun 20.4-cü maddəsinə uyğun olaraq, işaxtaran və işsiz şəxslərin peşə hazırlığının təşkili qaydasını təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.2.4. həmin Qanunun 22.3-cü maddəsinə uyğun olaraq, peşəyönümünə dair məsləhət xidmətlərinin göstərilməsi qaydasını təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.2.5. həmin Qanunun 24.6-cı maddəsinə uyğun olaraq, özünüməşğulluğa cəlb olunmuş şəxsdən geri alınmış əmlakın açıq hərracda satılması qaydasını təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.2.6. həmin Qanunun 29.3-cü maddəsinə uyğun olaraq, peşə hazırlığına cəlb olunan işsiz şəxsə verilən təqaüdün ödənilməsi qaydasını təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

2.1. "Məşğulluq haqqında" Azərbaycan Respublikası Qanununun 1.1.6-cı, 1.1.7-ci, 1.1.8-ci, 1.1.12-ci, 1.1.16-cı, 1.1.21-ci, 1.1.23-cü, 4.2-ci (hər iki halda), 4.3-cü, 4.4.1-ci, 4.4.2-ci (hər iki halda), 4.4.3-cü, 4.4.4-cü (hər iki halda), 4.4.5-4.4.9-cu, 4.4.10-cu (hər iki halda), 4.5-ci, 4.6-cı, 4.7-ci (hər iki halda), 5.1-ci (hər iki halda), 5.3-cü, 5.5-ci, 5.8.3-cü, 5.9.1-ci, 5.13-cü, 6.2-ci, 6.4.3-cü, 7.1-ci, 7.3-cü, 9.1.2-ci, 9.1.3-cü, 9.1.6-cı, 10.2.1-ci, 10.2.2-ci, 10.2.6-cı, 10.2.7-ci, 11.2-ci, 11.4-cü, 12.1-12.3-cü, 14.2-ci, 14.3-cü, 14.4-cü (hər iki halda), 14.5-ci, 15.1-ci, 15.2-ci, 16.2-ci, 17.3-cü, 18.2-18.6-cı, 18.7-ci (hər iki halda), 20.1-ci (hər iki halda), 20.2-ci, 20.4-cü, 21.1-ci, 21.3-cü, 21.5-ci, 22.1-ci, 22.3-cü, 23.1 - 23.3-cü, 24.1-24.4-cü, 24.5-ci (hər iki halda), 24.6-cı (hər iki halda), 24.8-ci, 24.11-ci, 25.1-ci (hər iki halda), 25.2-ci (hər iki halda), 25.3-cü, 26.1-ci, 26.2-ci, 27.1-27.3-cü, 28.1.8-ci, 29.1-ci (hər iki halda), 29.3-cü, 30.1-30.3-cü, 30.4-cü (hər iki halda), 31.1-31.3-cü maddələrində, 33.2-ci maddəsinin birinci (hər dörd halda) və ikinci cümlələrində, 35.1-ci və 35.2-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.2. həmin Qanunun 4.4.2-ci (birinci halda), 21.3-cü, 25.2-ci (ikinci halda), 29.1-ci (ikinci halda) və 31.2-ci maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

2.3. həmin Qanunun 33.2-ci maddəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə vəsaitlərin orqanlar arasında bölgüsü hissəsində Azərbaycan Respublikasının Prezidenti, vəsaitlərdən istifadə qaydası hissəsində isə Azərbaycan Respublikasının Prezidenti (Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində və Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidmətində işləyən dövlət qulluqçularına münasibətdə) və Azərbaycan Respublikasının Nazirlər Kabineti (Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin işçilərinə münasibətdə) nəzərdə tutulur;

2.4. həmin Qanunun 1.1.8-ci, 4.3-cü, 5.1-ci (ikinci halda), 11.2-ci, 14.3-cü, 15.2-ci, 18.3-cü, 20.4-cü, 21.5-ci, 22.3-cü, 23.3-cü, 24.6-cı (birinci halda), 24.11-ci, 25.1-ci (ikinci halda), 26.2-ci, 29.3-cü, 30.3-cü və 35.2-ci maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

2.5. həmin Qanunun 1.1.6-cı, 1.1.7-ci, 1.1.21-ci, 1.1.23-cü, 4.2-ci (hər iki halda), 4.4.1-ci, 4.4.2-ci (ikinci halda), 4.4.4-cü (ikinci halda), 4.4.5 - 4.4.7-ci, 4.4.10-cu (ikinci halda), 4.6-cı, 4.7-ci (birinci halda), 5.1-ci (birinci halda), 5.3-cü, 5.5-ci, 5.8.3-cü, 5.9.1-ci, 5.13-cü, 6.4.3-cü, 7.1-ci, 7.3-cü, 9.1.2-ci, 9.1.3-cü, 9.1.6-cı, 10.2.1-ci, 10.2.2-ci, 10.2.6-cı, 10.2.7-ci, 11.4-cü, 14.2-ci, 14.4-cü (hər iki halda),14.5-ci, 15.1-ci, 16.2-ci, 18.2-ci, 18.4-18.6-cı, 18.7-ci (hər iki halda), 20.1-ci (hər iki halda), 20.2-ci, 21.1-ci, 22.1-ci, 23.1-ci, 24.1-24.4-cü, 24.5-ci (birinci halda), 24.8-ci, 25.1-ci

(birinci halda), 25.3-cü, 26.1-ci, 27.1-27.3-cü, 28.1.8-ci, 29.1-ci (birinci halda), 30.1-ci, 30.2-ci, 30.4-cü (hər iki halda), 31.1-ci maddələrində, 33.2-ci maddəsinin birinci cümləsində (birinci və ikinci hallarda) və 35.1-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;

2.6. həmin Qanunun 1.1.12-ci və 31.3-cü maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Vergilər Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi nəzərdə tutulur;

2.7. həmin Qanunun 4.4.3-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Vergilər Nazirliyi nəzərdə tutulur;

2.8. həmin Qanunun 4.4.4-cü (birinci halda) maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi və yerli icra hakimiyyəti orqanları nəzərdə tutulur;

2.9. həmin Qanunun 4.4.8-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Təhsil Nazirliyi nəzərdə tutulur;

2.10. həmin Qanunun 4.4.9-cu və 4.4.10-cu (birinci halda) maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti nəzərdə tutulur;

2.11. həmin Qanunun 4.5-ci və 4.7-ci (ikinci halda) maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi və yerli icra hakimiyyəti orqanları nəzərdə tutulur;

2.12. həmin Qanunun 6.2-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi nəzərdə tutulur;

2.13. həmin Qanunun 12.1-ci və 17.3-cü maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və yerli icra hakimiyyəti orqanları nəzərdə tutulur;

2.14. həmin Qanunun 12.2-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi nəzərdə tutulur;

2.15. həmin Qanunun 12.3-cü maddəsində "orqan (qurum)" dedikdə respublika məşğulluq proqramlarına münasibətdə Azərbaycan Respublikasının Nazirlər Kabineti və ərazi məşğulluq proqramlarına münasibətdə isə yerli icra hakimiyyəti orqanları nəzərdə tutulur;

2.16. həmin Qanunun 23.2-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və yerli icra hakimiyyəti orqanları nəzərdə tutulur;

2.17. həmin Qanunun 24.5-ci (ikinci halda) və 25.2-ci (birinci halda) maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi nəzərdə tutulur;

2.18. həmin Qanunun 24.6-cı maddəsində (ikinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi nəzərdə tutulur;

2.19. həmin Qanunun 33.2-ci maddəsinin birinci cümləsində (üçüncü halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;

2.20. həmin Qanunun 33.2-ci maddəsinin birinci cümləsində "orqanların (qurumların) işçiləri" dedikdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində və Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidmətində işləyən dövlət qulluqçuları, həmçinin Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin işçiləri nəzərdə tutulurlar.

3. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi:

3.1. "Məşğulluq haqqında" Azərbaycan Respublikası Qanununun 1.1.16-cı maddəsinə uyğun olaraq, konkret peşə sahəsi üzrə işçinin yerinə yetirməli olduğu işin məzmununa və əmək şəraitinə qoyulan minimum tələbləri üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.2. həmin Qanunun 5.3-cü maddəsinə uyğun olaraq, elektron ərizənin formasını üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının

Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.3. həmin Qanunun 14.4-cü maddəsinə uyğun olaraq, işaxtaran və işsiz şəxslərin işədüzəlməsində vasitəçilik fəaliyyətini həyata keçirən hüquqi şəxslər tərəfindən iş üçün müraciət edən və işlə təmin olunan şəxslərin sayı haqqında məlumatların təqdim edilməsi qaydasını və formasını üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.4. həmin Qanunun 18.5-ci maddəsinə uyğun olaraq, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin göndərişi ilə işə qəbul edilənlər, o cümlədən kvota üzrə işə qəbul edilənlər və işdən çıxarılanlar haqqında aylıq hesabatın təqdim edilməsi qaydasını və formasını üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.5. həmin Qanunun 30.4-cü maddəsinə uyğun olaraq, qeyri-formal məşğulluq halları ilə bağlı aşkar edilmiş məlumatlara dair hesabatın formasını üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.6. həmin Qanunun 31.1-ci maddəsində nəzərdə tutulmuş "Qeyri-formal məşğulluğa nəzarət" vahid elektron informasiya ehtiyatının "Elektron hökumət" portalı üzərindən yaradılmasını təmin etsin.

4. Azərbaycan Respublikasının Vergilər Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi "Məşğulluq haqqında" Azərbaycan Respublikası Qanununun 31.3-cü maddəsinə uyğun olaraq, qeyri-formal məşğulluğun aşkar edilməsi və qarşısının alınması məqsədi ilə nəzarət tədbirlərinin həyata keçirilməsi üçün "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq risk qruplarının müəyyən edilməsi, qeyri-formal məşğulluğun qarşısının alınması ilə bağlı preventiv tədbirlər görülməsinə və risk qiymətləndirilməsi sisteminə dair təkliflərini üç ay müddətində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təqdim etsinlər.

5. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 24 avqust 2018-ci il*
*N 233*

## Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 20-ci bəndlərinə uyğun olaraq, Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatının məqsədini, prinsiplərini və növlərini müəyyən edir, habelə bu sahədə yaranan ictimai münasibətləri tənzimləyir.

### FƏSİL 1
### ÜMUMİ MÜDDƏALAR

**Maddə 1. Əsas anlayışlar**

1.0. Bu Qanunda aşağıdakı anlayışlardan istifadə olunur:

1.0.1. dövlət daktiloskopik qeydiyyatı - insan

şəxsiyyətinin eyniləşdirilməsi üçün daktiloskopik məlumatların əldə olunması, uçotu, saxlanılması və istifadəsi üzrə fəaliyyət;

1.0.2. daktiloskopik məlumat - insanın şəxsiyyətini müəyyən etməyə imkan verən, onun əl barmaqlarındakı papilyar naxışların quruluşunun xüsusiyyətləri haqqında məlumat;

1.0.3. daktiloskopik məlumat bankı - maddi daşıyıcılarda olan daktiloskopik məlumatların sistemləşdirilmiş məcmusu;

1.0.4. dövlət genom qeydiyyatı - insan şəxsiyyətinin eyniləşdirilməsi üçün genetik məlumatların əldə olunması, uçotu, saxlanılması və istifadəsi üzrə fəaliyyət;

1.0.5. genetik məlumat - insanın şəxsiyyətini müəyyən etməyə imkan verən dezoksiribonuklein turşusu (bundan sonra - DNT) analizinin keçirilməsi ilə əldə edilən məlumat;

1.0.6. bioloji material - aşkar olunmuş, insandan, naməlum meyitdən DNT analizinin keçirilməsi məqsədilə götürülmüş qan, tüpürcək, tük, dırnaq, dəri, tər, sperma, orqanizmin digər ifrazatları, diş, sümük və digər toxuma nümunələri;

1.0.7. genetik identifikasiya - DNT Məlumat Bankına verilmiş bioloji materialın mənsub olduğu şəxsin, habelə bədən hissələrinin mənsubluğunun müəyyənləşdirilməsi üçün aparılan sorğu-axtarış işləri üzrə tədbirlər;

1.0.8. genetik verifikasiya - verilmiş bioloji material ilə DNT Məlumat Bankında olan məlumatın müqayisəsi üzrə tədbirlər;

1.0.9. DNT profili - insan şəxsiyyətinin eyniləşdirilməsinə imkan verən, genetik identifikasiya və verifikasiya məqsədi ilə məlumat bankında toplanılan, saxlanılan, işlənilən və istifadə olunan fərdi məlumat;

1.0.10. DNT məlumat bankı - DNT profillərinin maddi daşıyıcılarda olan sistemləşdirilmiş məcmusu;

1.0.11. naməlum meyit - şəxsiyyəti müəyyənləşdirilməmiş ölü insanın bədəni (bədən hissələri).

**Maddə 2. Dövlət daktiloskopik və genom qeydiyyatının məqsədi**

Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı daktiloskopik və genetik məlumatlar əsasında insan şəxsiyyətinin eyniləşdirilməsi məqsədilə aparılır.

**Maddə 3. Dövlət daktiloskopik və genom qeydiyyatı haqqında qanunvericilik**

3.1. Dövlət daktiloskopik və genom qeydiyyatı haqqında qanunvericilik Azərbaycan Respublikası Konstitusiyasından, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, bu Qanundan və digər normativ hüquqi aktlardan ibarətdir.

3.2. Daktiloskopik və genetik məlumatlar fərdi məlumatların tərkib hissəsi olmaqla, onların toplanılması, işlənilməsi və mühafizəsi qaydaları, həmçinin "Fərdi məlumatlar haqqında" və "Biometrik informasiya haqqında" Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilir.

**Maddə 4. Dövlət daktiloskopik və genom qeydiyyatının prinsipləri**

4.1. Dövlət daktiloskopik və genom qeydiyyatı Azərbaycan Respublikası Konstitusiyasında təsbit edilmiş insan hüquq və azadlıqlarına riayət edilməklə qanunçuluq, konfidensiallıq və könüllülüyün məcburiliklə uzlaşdırılması prinsiplərinə müvafiq həyata keçirilir.

4.2. Dövlət daktiloskopik və genom qeydiyyatının aparılması, eləcə də daktiloskopik və genetik məlumatların toplanılması, işlənilməsi, istifadəsi və mühafizəsi prosesində insanın həyat və sağlamlığı üçün təhlükə yaradılmasına, onun şərəf və ləyaqətinin alçaldılmasına yol verilmir.

## FƏSİL 2
## DÖVLƏT DAKTİLOSKOPİK QEYDİYYATININ APARILMASI

**Maddə 5. Daktiloskopik məlumatlardan istifadə**

5.0. Dövlət daktiloskopik qeydiyyatının aparılması nəticəsində əldə olunan məlumatlar aşağıdakı məqsədlər üçün istifadə edilir:

5.0.1. itkin düşmüş şəxslərin axtarışı;

5.0.2. naməlum meyitə əsasən insan şəxsiyyətinin müəyyənləşdirilməsi;

5.0.3. şəxsiyyətinin başqa üsullarla müəyyən edilməsi mümkün olmayan, habelə səhhətinə və ya yaşına görə özü haqqında məlumat vermək qabiliyyətinə malik olmayan şəxslərin şəxsiyyətinin müəyyənləşdirilməsi;

5.0.4. cinayətlərin və inzibati xətaların qarşısının alınması, aşkar edilməsi və araşdırılması.

**Maddə 6. Dövlət daktiloskopik qeydiyyatının növləri**

Bu Qanuna müvafiq olaraq məcburi və ya könüllü dövlət daktiloskopik qeydiyyatı aparılır.

**Maddə 7. Məcburi dövlət daktiloskopik qeydiyyatı**

7.1. Aşağıdakı şəxslər məcburi dövlət daktiloskopik qeydiyyatından keçirilir:

7.1.1. ümumvətəndaş, xidməti və ya diplomatik pasport alan Azərbaycan Respublikasının vətəndaşları (15 yaşı tamam olmamış vətəndaşlar istisna olmaqla);

7.1.2. müddətli həqiqi hərbi xidmətə çağırılan Azərbaycan Respublikasının vətəndaşları;

7.1.3. sərnişin və yük daşımalarını həyata keçirən nəqliyyat heyətinin üzvləri;

7.1.4. mədən və şaxtalarda, dənizdə işləyən, habelə dənizdəki obyektlərə ezam olunan əməkdaşlar;

7.1.5. şəxsiyyətinin başqa üsullarla müəyyən edilməsi mümkün olmayan, habelə səhhətinə və ya yaşına görə özü haqqında məlumat vermək qabiliyyətinə malik olmayan şəxslər;

7.1.6. cinayət törətməkdə şübhəli bilinən, təqsirləndirilən və ya məhkum olunmuş, habelə inzibati qaydada həbs edilmiş şəxslər;

7.1.7. müvəqqəti və ya daimi yaşamaq icazəsinin alınması üçün müraciət etmiş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər (15 yaşı tamam olmamış uşaqlar istisna olmaqla);

7.1.8. Azərbaycan Respublikasının Cinayət, İnzibati Xətalar və Miqrasiya məcəllələrinə uyğun olaraq Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılmalı olan, habelə qanunsuz miqrantların saxlanılması mərkəzlərində saxlanılan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər;

7.1.9. Azərbaycan Respublikasında siyasi sığınacaq almaq, habelə qaçqın statusu əldə etmək barədə vəsatət vermiş şəxslər.

7.2. Naməlum meyitlər də məcburi dövlət daktiloskopik qeydiyyatından keçirilməlidirlər.

7.3. Məcburi dövlət daktiloskopik qeydiyyatı müvafiq icra hakimiyyəti orqanı tərəfindən aparılır.

7.4. Müvafiq icra hakimiyyəti orqanı tərəfindən alınmış daktiloskopik məlumatın maddi daşıyıcılarının nüsxəsi ölkə üzrə vahid məlumat bankında saxlanılması üçün müvafiq icra hakimiyyəti orqanına göndərilir.

7.5. Bu Qanunun 7.4-cü maddəsinə uyğun olaraq göndərilən nüsxədə aşağıdakılar qeyd olunmalıdır:

7.5.1. məcburi dövlət daktiloskopik qeydiyyatından keçirilmiş şəxsin fərdi identifikasiya nömrəsi, soyadı, adı, atasının adı, vətəndaşlığı, cinsi, doğulduğu yer və tarix, şəxsin yaşadığı və ya olduğu yer üzrə qeydiyyatı haqqında məlumatlar;

7.5.2. dövlət daktiloskopik qeydiyyatının aparılmasının əsası və tarixi;

7.5.3. daktiloskopik məlumatı hazırlamış müvafiq icra hakimiyyəti orqanının adı.

**Maddə 8. Könüllü dövlət daktiloskopik qeydiyyatı**

8.1. Azərbaycan Respublikasının vətəndaşları, Azərbaycan Respublikasının ərazisində olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər könüllü dövlət daktiloskopik qeydiyyatından keçmək hüququna malikdirlər.

8.2. Şəxslərin könüllü dövlət daktiloskopik qeydiyyatı onların yazılı ərizələrinə əsasən müvafiq icra hakimiyyəti orqanı tərəfindən aparılır.

8.3. Məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan sayılmış Azərbaycan Respublikası vətəndaşlarının, həmçinin yetkinlik yaşına çatmayanların dövlət daktiloskopik qeydiyyatı onların qanuni nümayəndələrinin yazılı ərizələri əsasında aparılır. Məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan sayılmış Azərbaycan Respublikası vətəndaşlarından, həmçinin yetkinlik yaşına çatmayanlardan əl barmaq izlərinin götürülməsi onların qanuni nümayəndələrinin iştirakı ilə həyata keçirilir.

8.4. Könüllü dövlət daktiloskopik qeydiyyatı aparılarkən "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanunu ilə müəyyən edilmiş miqdarda rüsum tutulur.

**Maddə 9. Daktiloskopik məlumatların saxlanılması və istifadəsinin əsas tələbləri**

9.1. Daktiloskopik məlumatların saxlanılması və istifadə edilməsi şərtləri onların silinməməsini, itirilməməsini, təhrif olunmamasını və icazəsi olmayan şəxslər tərəfindən ələ keçirilməməsini təmin etməlidir.

9.2. Daktiloskopik məlumatların saxlanılması, uçotu, mühafizəsi və verilməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən, həmin məlumatlardan istifadə isə bu Qanunun 19.1-ci maddəsində nəzərdə tutulan dövlət orqanları tərəfindən bu Qanunun tələblərinə riayət etməklə həyata keçirilir.

9.3. Bu Qanunun 9.2-ci maddəsində nəzərdə tutulan dövlət orqanları xidməti konfidensiallıq rejimində daktiloskopik məlumatların mühafizəsini təmin edir, onların vəzifəli şəxsləri isə həmin məlumatların saxlanılması qaydalarını pozmağa və qeyri-qanuni istifadə edilməsinə görə qanunla müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

**Maddə 10. Daktiloskopik məlumatların saxlanılması müddətləri**

10.0. Maddi daşıyıcılarda əksini tapmış daktiloskopik məlumatlar müvafiq icra hakimiyyəti orqanında aşağıdakı müddətdə saxlanılır:

10.0.1. bu Qanunun 7.1.1-7.1.4-cü və 7.1.6-7.1.9-cu maddələrində göstərilən şəxslər haqqında məlumatlar (bu Qanunun 11.2-ci maddəsində qeyd edilmiş hallar istisna olmaqla) onların doğum tarixindən 100 il müddətində və ya ölüm faktı müəyyən edilənədək;

10.0.2. bu Qanunun 7.1.5-ci və 7.2-ci maddələrində göstərilən şəxslər və naməlum meyitlər haqqında məlumatlar onların şəxsiyyəti müəyyən edilənə qədər (lakin 80 ildən çox olmamaqla).

**Maddə 11. Daktiloskopik məlumatların məhv edilməsi**

11.1. Könüllü dövlət daktiloskopik qeydiyyatının aparılması nəticəsində alınmış daktiloskopik məlumatlar onların saxlanılmasını həyata keçirən müvafiq icra hakimiyyəti orqanı tərəfindən həmin qeydiyyatı keçmiş şəxsin, məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan sayılmış vətəndaşlara və yetkinlik yaşına çatmayanlara münasibətdə isə onların qanuni nümayəndələrinin yazılı ərizələrinə əsasən məhv edilir. Müvafiq icra hakimiyyəti orqanı daktiloskopik məlumatları məhv edərək bu barədə 30 gündən gec olmayaraq ərizəçiyə məlumat verir.

11.2. Bu Qanunun 7.1.6-cı maddəsində göstərilən şəxslər haqqında daktiloskopik məlumatlar həmin şəxslər barəsində aparılan cinayət təqibinə bəraətverici əsaslarla xitam verildikdən və ya məhkəmənin bəraət hökmü qanuni qüvvəyə mindikdən, habelə inzibati xətalar haqqında işlər üzrə icraata xitam verildikdən (inzibati məsuliyyətə cəlb etmə müddətlərinin başa çatması ilə əlaqədar icraata xitam verildiyi hallar istisna olmaqla) sonra 30 gündən gec olmayaraq məhv edilir.

11.3. Məcburi dövlət daktiloskopik qeydiyyatının aparılması nəticəsində alınmış daktiloskopik məlumatlar bu Qanunun 10-cu maddəsində göstərilən saxlama müddətləri keçdikdən sonra məhv edilir.

## FƏSİL 3
## DÖVLƏT GENOM QEYDİYYATININ APARILMASI

**Maddə 12. Genetik məlumatlardan istifadə**

12.0. Dövlət genom qeydiyyatının aparılması nəticəsində əldə olunan məlumatlar aşağıdakı məqsədlər üçün istifadə edilir:

12.0.1. itkin düşmüş şəxslərin axtarışı;

12.0.2. naməlum meyitə əsasən insan şəxsiyyətinin müəyyənləşdirilməsi;

12.0.3. şəxsiyyətinin başqa üsullarla müəyyən edilməsi mümkün olmayan, habelə səhhətinə və ya yaşına görə özü haqqında məlumat vermək qabiliyyətinə malik olmayan şəxslərin şəxsiyyətinin müəyyənləşdirilməsi;

12.0.4. cinayətlərin və inzibati xətaların qarşısının alınması, aşkar edilməsi və araşdırılması;

12.0.5. qohumluq əlaqələrinin qiymətləndirilməsi.

**Maddə 13. Dövlət genom qeydiyyatının növləri**

Bu Qanuna müvafiq olaraq məcburi və ya könüllü dövlət genom qeydiyyatı aparılır.

**Maddə 14. Məcburi dövlət genom qeydiyyatı**

14.1. Aşağıdakı şəxslər məcburi dövlət genom qeydiyyatından keçirilir:

14.1.1. ağır və ya xüsusilə ağır, həmçinin şəxsiyyətin cinsi toxunulmazlığı və cinsi azadlığı əleyhinə cinayət törətməkdə şübhəli bilinən, təqsirləndirilən və ya belə cinayətə görə məhkum olunmuş şəxslər;

14.1.2. şəxsiyyətinin başqa üsullarla müəyyən edilməsi mümkün olmayan, habelə səhhətinə və ya yaşına görə özü haqqında məlumat vermək qabiliyyətinə malik olmayan şəxslər;

14.1.3. xəbərsiz itkin düşmüş şəxslərin bioloji qohumları (bioloji valideynlər və ya övladları ilə birlikdə ər (arvad).

14.2. Naməlum meyitlər də məcburi dövlət genom qeydiyyatından keçirilməlidirlər.

14.3. Bu Qanunun 14.1-ci və 14.2-ci maddələrində nəzərdə tutulan şəxslərdən və naməlum meyitlərdən bioloji material müvafiq icra hakimiyyəti orqanı tərəfindən götürülür.

14.4. Müvafiq icra hakimiyyəti orqanı tərəfindən əldə olunmuş bioloji material və məlumat DNT analizinin aparılması, DNT profilinin əldə olunması və DNT Məlumat Bankında saxlanılması üçün müvafiq icra hakimiyyəti orqanına göndərilir.

14.5. Bu Qanunun 14.4-cü maddəsinə uyğun olaraq göndərilən bioloji materialın məlumatında aşağıdakılar qeyd olunmalıdır:

14.5.1. məcburi dövlət genom qeydiyyatından keçirilmiş şəxsin fərdi identifikasiya nömrəsi, soyadı, adı, atasının adı, vətəndaşlığı, cinsi, doğulduğu yer

və tarix, şəxsin yaşadığı və ya olduğu yer üzrə qeydiyyatı haqqında məlumatlar;

14.5.2. genom qeydiyyatının aparılmasının əsası və tarixi;

14.5.3. bioloji materialı götürmüş və məlumatı hazırlamış müvafiq icra hakimiyyəti orqanının adı.

14.6. DNT analizinin aparılması üçün bioloji materialın götürülməsi, onun uçotu, saxlanılması, istifadəsi, verilməsi və məhv edilməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**Maddə 15. Könüllü dövlət genom qeydiyyatı**

15.1. Azərbaycan Respublikasının vətəndaşları, Azərbaycan Respublikasının ərazisində olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər könüllü dövlət genom qeydiyyatından keçmək hüququna malikdirlər.

15.2. Şəxslərin könüllü dövlət genom qeydiyyatı onların yazılı ərizələrinə əsasən müvafiq icra hakimiyyəti orqanı tərəfindən aparılır.

15.3. Məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan sayılmış Azərbaycan Respublikası vətəndaşlarının, həmçinin yetkinlik yaşına çatmayanların dövlət genom qeydiyyatı onların qanuni nümayəndələrinin yazılı ərizələri əsasında aparılır. Məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan sayılmış Azərbaycan Respublikası vətəndaşlarından, həmçinin yetkinlik yaşına çatmayanlardan bioloji materialın götürülməsi onların qanuni nümayəndələrinin iştirakı ilə həyata keçirilir.

15.4. Könüllü dövlət genom qeydiyyatı aparılarkən "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanunu ilə müəyyən edilmiş miqdarda rüsum tutulur.

**Maddə 16. Genetik məlumatların saxlanılması və istifadəsinin əsas tələbləri**

16.1. Genetik məlumatların saxlanılması və istifadə edilməsi şərtləri onların silinməməsini, itirilməməsini, təhrif olunmamasını və icazəsi olmayan şəxslər tərəfindən ələ keçirilməməsini təmin etməlidir.

16.2. Genetik məlumatların saxlanılması, uçotu, mühafizəsi və verilməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən, həmin məlumatlardan istifadə isə bu Qanunun 19.1-ci maddəsində nəzərdə tutulan dövlət orqanları tərəfindən bu Qanunun tələblərinə riayət etməklə həyata keçirilir.

16.3. Bu Qanunun 16.2-ci maddəsində nəzərdə tutulan dövlət orqanları xidməti konfidensiallıq rejimində genetik məlumatların mühafizəsini təmin edir, onların vəzifəli şəxsləri isə həmin məlumatların saxlanılması qaydalarını pozmağa və qeyri-qanuni istifadə edilməsinə görə qanunla müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

**Maddə 17. Genetik məlumatların saxlanılması müddətləri**

17.0. DNT Məlumat Bankında əksini tapmış genetik məlumatlar aşağıdakı müddətdə saxlanılır:

17.0.1. bu Qanunun 14.1.1-ci maddəsində göstərilən şəxslər haqqında məlumatlar onların doğum tarixindən 100 il müddətində və ya ölüm faktı müəyyən edilənədək;

17.0.2. bu Qanunun 14.1.3-cü maddəsində göstərilən şəxslər haqqında məlumatlar xəbərsiz itkin düşmüş şəxsin doğum tarixindən 100 il müddətində və ya həmin şəxslər tapılanadək;

17.0.3. bu Qanunun 14.1.2-ci və 14.2-ci maddələrində göstərilən şəxslər və naməlum meyitlər haqqında məlumatlar onların şəxsiyyəti müəyyən edilənə qədər (lakin 80 ildən çox olmamaqla).

**Maddə 18. Genetik məlumatların məhv edilməsi**

18.1. Könüllü dövlət genom qeydiyyatının aparılması nəticəsində alınmış genetik məlumatlar onun saxlanılmasını həyata keçirən müvafiq icra hakimiyyəti orqanı tərəfindən həmin qeydiyyatı keçmiş şəxsin, məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan sayılmış vətəndaşlara və yetkinlik yaşına çatmayanlara münasibətdə isə onların qanuni nümayəndələrinin yazılı ərizələrinə əsasən məhv edilir. Müvafiq icra hakimiyyəti orqanı genetik məlumatları məhv edərək bu barədə 30 gündən gec olmayaraq ərizəçiyə məlumat verir.

18.2. Məcburi dövlət genom qeydiyyatının aparılması nəticəsində alınmış genetik məlumatlar bu Qanunun 17-ci maddəsində göstərilən saxlama müddətləri keçdikdən sonra məhv edilir.

## FƏSİL 4
## YEKUN MÜDDƏALAR

**Maddə 19. Daktiloskopik və genetik məlumatlardan istifadə hüququ**

19.1. Məhkəmələr, prokurorluq orqanları, ibtidai istintaq, təhqiqat orqanları, əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanlar, miqrasiya orqanları daktiloskopik və genetik məlumatlardan istifadə etmək hüququna malikdirlər.

19.2. Daktiloskopik məlumat bankında və DNT məlumat bankında saxlanılan məlumatlar xarici dövlətlərin dövlət orqanlarına Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq verilə bilər.

**Maddə 20. Qanunun pozulmasına görə məsuliyyət**

20.1. Bu Qanunun tələblərini pozan şəxslər qanunla müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

20.2. Dövlət daktiloskopik və genom qeydiyyatını aparan orqanların və vəzifəli şəxslərin insan və vətəndaşların hüquq və azadlıqlarını pozan qərarından, hərəkət və (və ya) hərəkətsizliyindən inzibati qaydada və məhkəmə qaydasında şikayət verilə bilər.

**Maddə 21. Qanunun qüvvəyə minməsi**

21.1. Bu Qanun 2018-ci il sentyabrın 1-dən qüvvəyə minir.

21.2. Bu Qanun qüvvəyə mindiyi gündən "Azərbaycan Respublikasında dövlət daktiloskopik qeydiyyatı haqqında" Azərbaycan Respublikasının Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 3 (I kitab), maddə 147; 2009, N 12, maddə 956; 2015, N 10, maddə 1105) ləğv edilir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 29 iyun 2018-ci il*
*N 1197-VQ*

## ”Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında” Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1197-VQ nömrəli Qanununun tətbiqi barədə

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1197-VQ nömrəli Qanununun 2018-ci il sentyabrın 1-dən tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. üç ay müddətində:

1.1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.3. həmin Qanunun 8.4-cü və 15.4-cü maddələrində nəzərdə tutulmuş dövlət rüsumunun məbləğləri barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.1.4. həmin Qanunun 14.6-cı maddəsinə uyğun olaraq, dezoksiribonuklein turşusu (DNT) analizinin aparılması üçün bioloji materialın götürülməsi, onun uçotu, saxlanılması, istifadəsi, verilməsi və məhv edilməsi qaydasını təsdiq etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.2. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

2.1. "Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında" Azərbaycan Respublikası Qanununun 14.6-cı maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının

Nazirlər Kabineti həyata keçirir;

2.2. həmin Qanunun 7.3-cü, 7.4-cü (birinci halda), 7.5.3-cü, 9.2-ci, 10.0-cı maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini aşağıdakı dövlət orqanları həyata keçirirlər:

2.2.1. həmin Qanunun 7.1.1-ci maddəsində göstərilən ümumvətəndaş pasportu alan şəxslərə, 7.1.2-7.1.5-ci, 7.2-ci maddələrində göstərilən şəxslərə və 7.1.6-cı maddəsində göstərilən inzibati qaydada həbs edilmiş şəxslərə münasibətdə - Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi;

2.2.2. həmin Qanunun 7.1.1-ci maddəsində göstərilən xidməti və ya diplomatik pasport alan şəxslərə münasibətdə - Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi;

2.2.3. həmin Qanunun 7.1.6-cı maddəsində göstərilən cinayət törətməkdə şübhəli bilinən və təqsirləndirilən şəxslərə münasibətdə - təhqiqat orqanları, ibtidai istintaq orqanları və ya həmin orqanların müraciəti ilə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi;

2.2.4. həmin Qanunun 7.1.6-cı maddəsində göstərilən məhkum olunmuş şəxslərə münasibətdə - Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi;

2.2.5. həmin Qanunun 7.1.7-7.1.9-cu maddələrində göstərilən şəxslərə münasibətdə - Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti;

2.3. həmin Qanunun 7.4-cü maddəsində (ikinci halda), 14.4-cü (ikinci halda), 15.2-ci maddələrində, 18.1-ci maddəsinin birinci və ikinci cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirir;

2.4. həmin Qanunun 8.2-ci maddəsində, 11.1-ci maddəsinin birinci və ikinci cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının vətəndaşlarına münasibətdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, əcnəbilər və vətəndaşlığı olmayan şəxslərə münasibətdə isə Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti həyata keçirir;

2.5. həmin Qanunun 14.3-cü, 14.4-cü (birinci halda), 14.5.3-cü və 16.2-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini aşağıdakı dövlət orqanları həyata keçirirlər:

2.5.1. həmin Qanunun 14.1.1-ci maddəsində göstərilən şəxslərə münasibətdə - təhqiqat orqanları, ibtidai istintaq orqanları və ya həmin orqanların müraciəti ilə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi;

2.5.2. həmin Qanunun 14.1.2-ci, 14.1.3-cü və 14.2-ci maddələrində göstərilən şəxslərə münasibətdə - Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 24 avqust 2018-ci il*
*N 232*

## ”Notariat haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 1, maddə 10, N 6, maddə 414; 2001, N 5, maddə 293,

N 11, maddə 687, N 12, maddə 740; 2002, N 5, maddə 241, N 6, maddə 328, N 12, maddə 706; 2004, N 5, maddə 318; 2005, N 4, maddə 281, N 8, maddə 699, N 10, maddə 903, N 11, maddə 993; 2007, N 1, maddə 4, N 2, maddə 69, N 8, maddə 745, N 11, maddələr 1053, 1075; 2008, N 6, maddə 462, N 7, maddə 602; 2009, N 1, maddə 5, N 7, maddə 517, N 11, maddə 878; 2010, N 7, maddə 597, N 11, maddə 938; 2011, N 4, maddə 258, N 12, maddə 1098; 2012, N 10, maddə 946; 2013, N 11, maddə 1271; 2014, N 11, maddə 1353; 2015, N 5, maddə 487; 2016, N 1, maddə 11, N 7, maddə 1243, N 12, maddə 2025; 2017, N 2, maddə 148, N 12, maddə 2236) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 76-cı maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"Borcludan pul məbləğlərini tutmaq və ya əmlakı tələb edib almaq üçün borclunun olduğu yer üzrə notarius borcu müəyyən edən sənədlərdə icra qeydləri aparmalıdır.

İcra qeydləri yalnız təqdim olunan sənədlər borcun mübahisəsiz olduğunu təsdiq etdiyi və bu maddənin üçüncü hissəsində nəzərdə tutulan müddət keçmədiyi halda aparılır.

Barəsində icra qeydi aparılan tələb üçün qanunla başqa müddət müəyyən edilməmişdirsə, icra qeydi tələb etmək hüququnun yarandığı gündən Azərbaycan Respublikası Mülki Məcəlləsinin 373-cü maddəsi ilə müəyyən edilmiş müvafiq iddia müddətləri keçənədək aparılır.

İcra qeydinin aparılması üçün dövlət orqanları, habelə hüquqi və fiziki şəxslər "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada elektron imzadan istifadə etməklə elektron formada müraciət edə bilərlər.

Fiziki şəxslər yazılı qaydada da notariat kontorlarına müraciət edə bilərlər.

Tələbkar icra qeydinin aparılması üçün notariat kontoruna müraciət etdiyi gündən ən azı 20 gün əvvəl sifarişli poçt vasitəsilə borcluya tələbin icra edilmədiyi halda icra qeydinin aparılacağı barədə bildiriş göndərməlidir. Bildirişin forması Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. İpoteka predmetinə tutmanın yönəldilməsi barədə bildirişin göndərilməsi qaydası və bu bildirişdən sonra notarius tərəfindən icra qeydinin aparılması müddəti "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir. Bildiriş, onun borcluya çatdırıldığını təsdiq edən sənəd, borclunun cavab məktubu (cavab məktubu olduğu halda) və borcu müəyyən edən sənədlər icra qeydinin aparılması ilə bağlı ərizəyə əlavə olunur.

Elektron formada müraciət olunduqda, ərizəyə əlavə olunan sənədlər skan edilərək və ya elektron sənəd formasında ona qoşma kimi əlavə olunur. Skan edilmiş sənədlərin həqiqiliyi ilə bağlı hər hansı şübhələrin yarandığı hallarda tələbkardan həmin sənədlərin əsillərinin təqdim edilməsi tələb olunur.

İcra qeydi aparılmış tələb borclu tərəfindən məhkəmə qaydasında mübahisələndirilə bilər.

Borcların icra qeydləri əsasında mübahisəsiz qaydada alınmasına əsas olan sənədlərin siyahısını Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.".

1.2. 77-ci maddənin birinci hissəsinin 4-cü bəndində "peniyalarla birlikdə" sözləri "dəbbə pulu (olduğu təqdirdə)" sözləri ilə əvəz edilsin.

1.3. 79-cu maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 79. İcra qeydlərinin icra edilməsi üçün təqdim olunması**

İcra qeydinin aparılması barədə ərizə müvafiq icra hakimiyyəti orqanının informasiya sisteminə və ya fiziki şəxsin yazılı ərizəsi notariat kontoruna daxil olduqdan sonra notarius bir iş günü müddətində icra qeydini aparır və icra qeydini müvafiq icra hakimiyyəti orqanının informasiya sistemi vasitəsilə "İcra haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq icra olunması üçün müvafiq icra hakimiyyəti orqanının informasiya sisteminə göndərir.".

**Maddə 2. Bu Qanun 2019-cu il yanvarın 1-dən qüvvəyə minir.**

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

*Bakı şəhəri, 29 iyun 2018-ci il*
*N 1223-VQD*

### "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1223-VQD nömrəli Qanununun tətbiqi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1223-VQD nömrəli Qanununun 2019-cu il yanvarın 1-dən tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. həmin Qanunun 79-cu maddəsində nəzərdə tutulan Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin "Elektron notariat" informasiya sistemi haqqında Əsasnaməni və Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin "Elektron icra" informasiya sistemi haqqında Əsasnaməni üç ay müddətində Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

1.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.5. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi:

2.1. "Notariat haqqında" Azərbaycan Respublikası Qanununun 76-cı maddəsinin altıncı hissəsində nəzərdə tutulmuş bildirişin formasını iki ay müddətində təsdiq etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin;

2.3. "Elektron notariat" informasiya sistemini genişləndirərək, icra qeydinin aparılması üçün müraciətin və sənədlərin qəbulu, icra qeydinin aparılması və bunun əsasında icra sənədinin icraya yönəldilməsinin elektron qaydada səmərəli təşkilini və bununla bağlı müvafiq elektron xidmətin 2019-cu il yanvarın 1-dən tətbiqini təmin etsin.

3. Müəyyən edilsin ki:

3.1. "Notariat haqqında" Azərbaycan Respublikası Qanununun 76-cı maddəsinin doqquzuncu hissəsində nəzərdə tutulmuş müvafiq icra

hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

3.2. həmin Qanunun 76-cı maddəsinin altıncı hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi həyata keçirir;

3.3. həmin Qanunun 79-cu maddəsində (birinci və ikinci hallarda) "müvafiq icra hakimiyyəti orqanının informasiya sistemi" dedikdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin "Elektron notariat" informasiya sistemi nəzərdə tutulur;

3.4. həmin Qanunun 79-cu maddəsində (üçüncü halda) "müvafiq icra hakimiyyəti orqanının informasiya sistemi" dedikdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin "Elektron icra" informasiya sistemi nəzərdə tutulur.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 10 avqust 2018-ci il*
*N 230*

## ”İcra haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, N 3, maddə 114; 2003, N 6, maddə 277; 2004, N 8, maddə 598, N 11, maddə 901, N 12, maddə 973; 2007, N 1, maddə 3, N 6, maddə 562, N 11, maddə 1053; 2008, N 6, maddə 462, N 7, maddə 602; 2009, N 12, maddə 952; 2010, N 2, maddə 75, N 7, maddə 591; 2011, N 6, maddə 482, N 7, maddə 618; 2012, N 11, maddə 1052; 2013, N 6, maddə 613, N 7, maddə 787, N 12, maddə 1494; 2015, N 12, maddə 1434; 2016, N 12, maddə 2050; 2017, N 2, maddə 156, N 6, maddə 1056, N 8, maddə 1511; 2018, N 2, maddə 151; Azərbaycan Respublikasının 2018-ci il 3 aprel tarixli 1062-VQD nömrəli, 24 aprel tarixli 1080-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 8.3-cü maddədə, 10.3-cü, 16.2-ci, 20.2-ci, 21.5-ci maddələrin ikinci cümlələrində və 20.7-ci maddədə "orqana" sözündən sonra "(notarius istisna olmaqla)" sözləri əlavə edilsin.

1.2. 23.3-cü maddəyə aşağıdakı məzmunda ikinci və üçüncü cümlələr əlavə edilsin:

"Bu Qanunun 23.1-ci maddəsində nəzərdə tutulan əsaslar aradan qalxdıqdan sonra tələbkar icra qeydinin icrası üçün yenidən aidiyyəti icra qurumuna müraciət edə bilər. Bu hallarda icra qurumu icra qeydini icraata qəbul etməli və bu Qanunla nəzərdə tutulan tədbirləri görməlidir.".

1.3. 23.1-ci maddədə, 53.3-cü maddənin ikinci cümləsində və 55-ci maddənin ikinci cümləsində "orqana" sözündən sonra "(notariusun icra qeydi isə tələbkara)" sözləri əlavə edilsin.

1.4. 23.7-ci maddənin birinci cümləsində və 70.4-cü maddənin birinci cümləsində "orqana" sözündən sonra "(notariusun icra qeydinin isə tələbkara)" sözləri əlavə edilsin.

1.5. 84.4-cü maddədən "və digər orqanların" sözləri çıxarılsın.

**Maddə 2.** Bu Qanun 2019-cu il yanvarın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 29 iyun 2018-ci il*
*N 1224-VQD*

## "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, N 12, maddə 740; 2002, N 12, maddə 706; 2003, N 1, maddə 23, N 8, maddə 428, N 12, I kitab, maddələr 676, 698; 2005, N 1, maddə 1, N 6, maddə 462, N 8, maddə 684, N 10, maddələr 873, 905, N 12, maddə 1083; 2006, N 3, maddələr 223, 225, N 6, maddə 481, N 12, maddələr 1015, 1029; 2007, N 2, maddə 80, N 12, maddə 1203; 2008, N 3, maddə 158, N 6, maddə 462, N 7, maddə 602, N 12, maddə 1047; 2009, N 1, maddə 5, N 2, maddə 56, N 3, maddə 160, N 7, maddə 519, N 12, maddə 947; 2010, N 4, maddə 276, N 6, maddə 485, N 10, maddə 840, N 11, maddə 939; 2011, N 1, maddə 12, N 4, maddələr 245, 264, N 11, maddə 985, N 12, maddə 1100; 2012, N 1, maddə 4, N 6, maddələr 508, 518, N 7, maddə 646, N 10, maddə 947, N 12, maddələr 1216, 1227, 1229; 2013, N 3, maddə 213, N 5, maddə 474, N 11, maddələr 1269, 1279, 1299, 1301, 1308, N 12, maddələr 1485, 1504; 2014, N 1, maddə 6, N 5, maddə 468, N 6, maddələr 603, 605, N 7, maddələr 774, 780, N 11, maddələr 1345, 1370; 2015, N 12, maddə 1432; 2016, N 1, maddələr 15, 36, N 4, maddə 630, N 5, maddə 849, N 6, maddə 1014, N 10, maddə 1605, N 11, maddələr 1753, 1776, 1780, 1790, N 12, maddələr 2006, 2051; 2017, N 3, maddələr 337, 341, N 5, maddə 742, N 6, maddə 1028, N 7, maddə 1308, N 8, maddə 1506, N 12, I kitab, maddə 2265; 2018, N 3, maddə 405, N 4, maddələr 639, 647) 10.19-cu* maddəsində "10 manat" sözləri "20 manat" sözləri ilə əvəz edilsin.

**Maddə 2.** Bu Qanun 2019-cu il yanvarın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 29 iyun 2018-ci il*
*N 1225-VQD*

* *"Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının 2001-ci il 4 dekabr tarixli 223-IIQ nömrəli Qanununun 10.19-cu maddəsində icra qeydlərinin aparılması üçün dövlət rüsumunun məbləği qeyd olunmuşdur.*